

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 fevral 2026-cı il, şənbə

№ 039 (7106)

Qiyməti 60 qəpik


# Efiopiyanın Baş naziri Bakıda...



Bax səh. 2

# Silinməz yaddaşımızın təcəssümü!

Bax səh. 3

## "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək

Postmüharibə dövründə Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və onların ailə üzvlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri mütəmadi hal alıb. Diqqət çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, bu səfərlər çərçivəsində dövlətimizin başçısı yenidən qurulan şəhər və kəndlərdə məskunlaşan keçmiş məcburi köçkün və qaçqın soydaşlarımızla görüşlərə qatılaraq onların arzu və istəklərini öyrənir.

Bu baxımdan Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın fevralın 25-də işğaldan azad olunmuş ərazilərə son səfərləri də istisna olmayıb. Onların səfər çərçivəsində Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşündə Prezident İlham Əliyev keçilmiş yola nəzər salaraq ağır işğal illərini xatırladıb, tarixi zəfərlərimizdən sonra "Böyük Qayıdış" proqramının uğurla icra edilməsindən məmnunluğunu bildirib, həmçinin yeni strateji mərhələdə qarşıda duran vəzifələrə diqqət çəkib.

Bəhs olunan görüşdə Prezident İlham Əliyev təxminən otuz il davam edən işğal illərinə qısa ekskurs edib. O illər həm yeni qurulan dövlətimiz, həm də qaçqın və məcburi köçkün soydaşımız üçün çox ağır bir dövr idi. Ötən əsrin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq siyasətinin nəticəsi olaraq Azərbaycan ərazilərinin 20 faizini itirmiş, bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışdı...

Bax səh. 4

## Milli Məclisin iclasında... 9 qanun layihəsi müzakirə edilib



Bax səh. 5

## Üç dost dövlətin müttəfiqlik nümunəsi

Bax səh. 5

## Reytinq arxasında itən dəyərlərimiz...

Bax səh. 7

## Vaşinqtonda böyük dönüş

Bax səh. 7

## Peşə təhsili - əmək bazarına asan çıxış...

Transformasiyalar dövrünün meydana çıxardığı yeni çağırışlar, həmçinin təhsili də əhatə edir. Təhsil hər bir ölkənin, xalqın gələcəyidir və bu sahəyə qoyulan investisiyalar gələcəyə yönəldilən sərmayələr anlamında qəbul olunur.

Təhsillə bağlı yeni çağırışlar isə təhsilalanlara nəzəri biliklərin verilməsi ilə yanaşı, peşə təhsilinin də inkişaf etdirilməsi ilə bağlıdır. Peşə təhsili müasir dövrün tələblərinə cavab verən, rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasında xüsusi rol oynamaqla gəncləri bir növ həyata hazırlayır, gələcəkdə onların əmək bazarına inteqrasiyasını asanlaşdırır. Prezident İlham Əliyevin bu günlərdə regionlara növbəti səfəri çərçivəsində Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışına qatılması bir daha təsdiqləyir ki, ölkəmizdə də peşə təhsilinin inkişafına dövlət səviyyəsində həssas yanaşma sərgilənir.

İndiki dövrdə ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilir. Müasir dövlət kimi inkişaf edən Azərbaycan da neft kapitalını insan kapitalına çevirməyi hədəfləyib. Ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında bu istiqamətdə davamlı fəaliyyətlər həyata keçirilir. Təsadüfi deyil ki, Vətən müharibəsindən dərhal sonra, daha dəqiq desək, 2021-ci il fevralın 2-də təsdiqlənən 2030-cu ilədək sosial-iqtisadi inkişaf üçün müəyyən edilmiş milli prioritetlərin hər biri insan kapitalının inkişafını və sosial rifahın daha da yaxşılaşdırılmasını hədəfləyir. Ardıcıllıqla həyata keçirilən islahatlar...

Bax səh. 4



## Nüvə triadası: qlobal güc balansında yeni ad...

Bax səh. 6



## Arktika uğrunda yeni rəqabət

Bax səh. 7

# Efiopiyanın Baş naziri Bakıda...

## 6 sənəd imzalandı





### Rəsmi qarşılanma

Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini və birinci xanım Zinaş Tayaçevi qarşıladılar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə təkbətək görüşü olub.

### Efiopiya uğurla inkişaf edir, beynəlxalq birliyin vacib bir üzvüdür



Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə geniş tərkibdə görüşü oldu.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi: Hörmətli cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Çox şadam ki, bizi ziyarət edirsiniz. Bizim elə indicə cənab Baş nazirlə çox yaxşı söhbətimiz oldu və biz tərəfdaşlığımızın bir çox vacib sahələrini əhatə etdik. Mən cənab Baş nazirə bu yaxınlarda Efiopiyaya səfər etmiş qızım Leylaya göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı ifadə etdim. Bu səfər ona yaxşı, böyük təəssürat bağışladı. Yeri gəlmişkən, o, ilk dəfədir ki, nümayəndə heyətlərinin görüşündə iştirak edir və bu, onun Sizin ölkənizə, Sizin xalqınıza olan çox xüsusi münasibəti ilə bağlıdır. Mən Sizi bütün nailiyyətləriniz münasibətilə təbrik etmək istəyirəm.

Sizin rəhbərliyinizlə Efiopiya uğurla inkişaf edir, beynəlxalq birliyin vacib üzvüdür və iqtisadiyyatınız da artır. Əlbəttə ki, biz ikitərəfli münasibətlərimizin siyasi və iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət sahələrində gücləndirilməsində çox maraqlıyıq. Bir sözlə, əminəm ki, bu səfər bizim gələcək uğurlu əməkdaşlığımız üçün vacib amil olacaq və ölkələrimizə, xalqlarımıza çox yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz.

### "Dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər"




Sonra Baş nazir Abiy Əhməd Əli çıxış edərək dedi: Cənab Prezident, əziz Qardaşım. Gözəl ölkənizdə olmaqdan məmnunam və şərəf hissi duyuram. Bakı gözlədiyimdən qat-qat təmiz və gözəl şəhərdir. Bu isə ölkə rəhbərliyinin buna sadiqliyini və yanaşmasını göstərir. Bu, məni çox sevindirir. Həmçinin Sizi təbrik etmək istərdim ki, dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər. Gözəl ölkənizlə münasibətlərimiz, qeyd etdiyiniz kimi, hələ sadəcə başlayır. Bununla belə, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik.

İki ölkə arasında çoxlu ortaq maraqlar var. İkimiz arasında, həmçinin çox uzlaşma mövcuddur. İndicə başladığımızla yanaşı, ümid edirəm ki, növbəti bir neçə ildə bizim birlikdə sərmayə yatıracağımız vacib sahələr olacaq və beləliklə, hər iki ölkə üçün fərq yaradacağıq.

Leylaya gəldikdə, mən dostlarla ünsiyyət qura bilən və möhkəm bünövrə əsasında münasibətlər yaratmağı bacaran belə təcrübəli qızınızın olduğu üçün Sizi təbrik etmək istəyirəm. Əminəm ki, növbəti səfərdə o, ölkəmizin bəzi bölgələrini görəcək və mən də komandamı, ailəmi Azərbaycanla tanış olmaq və münasibətlərimizi gücləndirmək üçün göndərəcəyəm.

Müzakirə edəcəyimiz çox sahələr var. Sizinlə çox məhsuldar və səmimi müzakirəmiz oldu. Bu məsələlərin bəzilərinin müzakirəsini burada davam etdirə bilərik. Ümumiyyətlə, mən gözəl ölkənizə səfər etməkdən çox şadam. Artıq çox böyük marağım yaranıb. Mən daha çox bilməyi, öyrənməyi və bir çox sahələrdə Sizinlə işləməyi səmimiyyətlə arzulayıram. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

***

Söhbət zamanı Azərbaycanla Efiopiya arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Həmçinin kənd təsərrüfatı, mədən sənayesi, enerji, energetika, rəqəmsal transformasiya, süni intellekt sahələrində birgə kadr hazırlığı, turizm, mədəniyyət, təhsil, o cümlədən tələbə mübadiləsinin həyata keçirilməsi üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə, eyni zamanda, Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin "DOST" təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı qeyd edildi.

### Sənədlər imzalandı

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos "Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Birləşmiş Millətlər Təşkilatının İqlim Konfransının (COP32) otuz ikinci sessiyasının təşkilində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Qeyd edək ki, Efiopiyanın Baş nazirinin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Efiopiyanın Federal Etika və Antikorrupsiya Komissiyası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" və "Azərbaycan Televiziya və Radio Verilişləri QSC ilə Efiopiya Yayım Korporasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.







### Azərbaycanın və Efiopiyanın birinci xanımlarının görüşü olub

Fevralın 27-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Efiopiyanın birinci xanımı Zinaş Tayaçev ilə görüşü olub.

### Efiopiyanın Baş nazirinin şərəfinə rəsmi nahar

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin və birinci xanım Zinaş Tayaçevin şərəfinə rəsmi nahar verilib.



# Silinməz yaddaşımızın təcəssümü!

## İlham Əliyev: Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük

Tarix boyunca ermənilər azərbaycanlılara qarşı misli görünməmiş vəhşiliklər törədiblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə baş verən Xocalı faciəsi isə ermənilərin azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.

Biz qan yaddaşımıza yazılan bu faciəni unutmuruq və heç vaxt da unutmayacağıq. Fevralın 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər. Dövlətimizin başçısı Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdəki çıxışında vurğulayıb ki, Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır.












Tarix boyunca Ermənistan cəmiyyətində insanlara Azərbaycan xalqına qarşı nifrət, milli-dini dözümsüzlük hissi aşılanıb, uşaqlar, yeniyetmələr bu ruhda tərbiyə olunublar. Xocalıda baş verənlər də məhz daşnakların, kilsənin onilliklər boyunca Ermənistan cəmiyyətinə səpdiyi toxumların zəhərli meyvələri idi. Faciəni təsvir etmək çətindir. Bu vəhşilikləri yalnız bir etnosa qarşı nifrətə köklənmiş toplum törədə bilərdi ki, bunu da ermənilər etdilər. Sonradan isə Z.Balayan kimi ideoloqlar, S.Sarkisyan kimi siyasi rəhbərlər Xocalıda baş verənləri beynəlxalq ictimaiyyətə ermənilərin "qəhrəmanlığı" kimi təqdim etməyə çalışdılar. Körpə uşaqların dərisini

### Azərbaycan xalqı üçün ən böyük faciə

soymaq, hamilə qadınların qarnına süngü taxmaq, yaşlı insanlara aman verməmək və bu kimi digər yaramazlıqların qəhrəmanlıqla nə əlaqəsi ola bilər? Bunlar qəhrəmanlıq yox, sivilizasiya görməmiş qəbilələrə xas olan vandallıqdır.

Xocalı faciəsi və digər müharibə cinayətləri ermənilərin özləri barədə uydurduqları mifləri tar-mar etdi. Qəhrəman, döyüşkən xalqın ordusu heç bir halda dinc sakinləri, mülki infrastrukturu hədəf seçməz. Müharibə döyüş meydanında aparılır. Ermənilər isə hər zaman pusquda dayanaraq arxadan zərbə vurmağa çalışıblar. Bu, onların simasıdır, xislətidir və biz 44 günlük Vətən müharibəsi günlərində bir daha bunun şahidi olduq. Xocalıda dinc əhaliyə divan tutmağı "qəhrəmanlıq" adlandıran ermənilər müharibə günlərində rəzil durumda qaldılar. Erməni əsgərləri, zabitləri döyüş meydanlarında sursatlarını, mövqelərini qoyaraq qaçırdılar. Cəmi 44 gün ərzində Ermənistan ordusunda 11 mindən çox fərarinin qeydə alınması ermənilərin necə "qəhrəman" xalq olduqlarını bir daha nümayiş etdirdi.

Bəhs olunan tədbirdəki çıxışında Prezident İlham Əliyev Xocalıda baş verənləri Azərbaycan xalqı üçün ən böyük faciə kimi səciyyələndirib. Şəhər bir gecədə tamamilə məhv edilib. Təsadüfi deildir ki, bu faciə dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi soyqırımları ilə müqayisə olunur. Bu soyqırımı nəticəsində 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə ahıl olmaqla bütövlükdə 613 nəfər həyatla vidalaşıb. 8 ailə tamamilə məhv edilib. 56 nəfər xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq öldürülüb. Faciə nəticəsində 27 ailənin yalnız 1 üzvü qalıb, 25 uşaq hər iki valideynini itirib, 487 insan şikəst olub, 1275 insan əsir götürülüb, 150 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur.

İşğal nəticəsində Xocalı şəhəri xarabalığa çevrilib. Belə ki, burada 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, qəbirlər təhqirlərə məruz qalıb.

Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərindən Azərbaycana qarşı başladığı işğalçılıq siyasəti tarixi ədalətin və beynəlxalq hüququn açıq-aşkar pozulması idi. Torpaq itkilərinə məruz qalan Azərbaycan düz otuz il ərzində ədalətsizliyə son qoyulması uğrunda mübarizə aparıb. Ancaq haqq səsimiz eşidilmirdi. Xaricdəki erməni lobbisinin təsiri altında olan beynəlxalq təşkilatlar, ayrı-ayrı güc mərkəzləri açıq-aşkar ermənilərə havadarlıq edir, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında bərabərlik işarəsi qoyur, beləliklə də, işğal məhsulu olan keçmiş status-kvonu sonsuzluğadək uzatmağa çalışırdılar. Azərbaycanı inandırmaq istəyirdilər ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin müharibə yolu ilə həlli istisnadır. 44 günlük Vətən müharibəsi dövrünü yada salaq. Tez-tez ayrı-ayrı paytaxtlardan Azərbaycan Prezidentinə zənglər gəlir və müharibənin dayandırılması istənilirdi. Ancaq heç bir kənar güc Azərbaycana təsir göstərə bilmədi. Ölkəmiz özünün milli gücü, xalqın həmrəyliyi sayəsində haqq-ədalət mübarizəsini tarixi zəfərlərlə başa çatdırmağa nail oldu. "Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Biz fərqində olmalıyıq ki, nə üçün ötən əsrin doxsanıncı illərinin əvvəllərində məğlubiyyət acısı yaşadıq, torpaq itkilərinə məruz qaldıq, otuz ildən sonra isə şanlı zəfərlərimizə sevindik. Məğlubiyyətlərimizin səbəbi ilk növbədə Azərbaycanın zəif, gücsüz olmasında idi. Otuz il ərzində isə ölkəmiz aparılan uğurlu siyasətin nəticəsində güc topladı, müasir ordu qurdu, cəmiyyətdə milli həmrəyliyi təmin etdi və bu amillər də qələbələrimizi şərtləndirdi. Postmüharibə dövründə də Azərbaycanın rəhbərliyi ölkənin milli gücünün artırılması, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi siyasətini davam etdirir. Azərbaycan qalib dövlət olsa da, dayanmır, yeni silahlar alır, Silahlı Qüvvələrin strukturunu yeniləyir, şəxsi heyətin döyüş hazırlığını davamlı

### Ədalətin tam təntənəsi!

olaraq artırır. Prezident İlham Əliyevin vurğu etdiyi kimi, bu gün xalqımızın sülh. əmin-amanlıq şəraitində yaşamasının əsas səbəbi də məhz Azərbaycanın güclü olması ilə bağlıdır.

Eyni zamanda, yaşadığımız faciələr bizim üçün bir yaddaşdır. Biz onları heç vaxt unutmamalıyıq. Bu baxımdan Memorial Kompleksin məhz Xocalıda yaradılması müstəsna önəm daşıyır. Prezident İlham Əliyev kompleksin yaradılmasının tarixini xatırladıb. Onun harada yaradılması ilə bağlı müxtəlif təkliflər var idi. Ancaq sonradan Prezident İlham Əliyev Memorial Kompleksin məhz faciənin baş verdiyi ünvanda yaradılmasına qərar verib. "Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük" deyən dövlətimizin başçısı vurğulayıb: "Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır".

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

### "Xocalıya ədalət!" hərəkatının böyük təsiri

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində ermənilər havadarlarının, xaricdəki erməni lobbisinin dəstəyi ilə Azərbaycan ətrafında bir növ informasiya blokadası qurmuşdular. Ayrı-ayrı beynəlxalq təşkilatlarda səsimiz eşidilmirdi, əksinə ölkəmizə qarşı "qara piar" aparılır, qərəzli qətnamələr qəbul olunurdu. Xocalı faciəsi ilə də bağlı eyni ssenari işə salınmışdı. Ermənistan, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran güclər faciəni ört-basdır etməyə çalışırdılar. Hətta bir sıra erməni təbliğatçıları daha da qabağa gedərək bu faciədə Azərbaycanı günahlandırırdılar.

Sonradan Azərbaycan dövləti ölkəmiz ətrafında qurulan informasiya blokadasını dağıtmağa, həmçinin Xocalı faciəsi ilə bağlı ermənilərin yaydıqları dezinformasiyaların qarşısını almağa nail oldu. "Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir", - deyə Prezident İlham Əliyev bildirib.

Dövlətimizin başçısının vurğuladığı kimi, "Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı soyqırımını qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

***Mübariz ABDULLAYEV***

# "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək








*Mübariz ABDULLAYEV*

Postmüharibə dövründə Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və onların ailə üzvlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri mütəmadi hal alıb. Diqqət çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, bu səfərlər çərçivəsində dövlətimizin başçısı yenidən qurulan şəhər və kəndlərdə məskunlaşan keçmiş məcburi köçkün və qaçqın soydaşlarımızla görüşlərə qatılaraq onların arzu və istəklərini öyrənir.

Bu baxımdan Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın fevralın 25-də işğaldan azad olunmuş ərazilərə son səfərləri də istisna olmayıb. Onların səfər çərçivəsində Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşündə Prezident İlham Əliyev keçilmiş yola nəzər salaraq ağır işğal illərini xatırladıb, tarixi zəfərlərimizdən sonra "Böyük Qayıdış" proqramının uğurla icra edilməsindən məmnunluğunu bildirib, həmçinin yeni strateji mərhələdə qarşıda duran vəzifələrə diqqət çəkib.

**Dünyada son 80 ildə Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır**

Bəhs olunan görüşdə Prezident İlham Əliyev təxminən otuz il davam edən işğal illərinə qısa ekskurs edib. O illər həm yeni qurulan dövlətimiz, həm də qaçqın və məcburi köçkün soydaşımız üçün çox ağır bir dövr idi. Ötən əsrin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq siyasətinin nəticəsi olaraq Azərbaycan ərazilərinin 20 faizini itirmiş, bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışdı.

Belə bir kədərli reallıq fonunda ölkəmizin Zəfərə gedən yolu heç də asan olmayıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə heç vaxt ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışmayıb. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi sayəsində işğal faktına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi daim ölkə gündəminin mərkəzində saxlanılıb. Bu strateji xəttə uyğun olaraq Azərbaycan danışıqlar prosesində fəallıq göstərməklə yanaşı, həm də iqtisadiyyatını gücləndirməklə milli gücünü artırıb, müasir ordu quruculuğunu diqqət mərkəzində saxlayıb.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. Xatırladaq ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Bunun ardınca üçtərəfli Bəyanatın şərtlərinə uyğun oaraq noyabrın 10-dan sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə də atılmadan Azərbaycana təhvil verilib. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Bununla da ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edilib.

44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində reallaşdırmağa nail oldu. Şanlı zəfərlərimiz bizim sonsuz qürur mənbəyimizdir. Prezident İlham Əliyev gələcəyə böyük inamını ifadə edərək bildirib ki, tariximizin ağır dövrü bir daha geri qayıtmayacaq. "Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

**İndi quruculuq vaxtıdır**

İkinci Qarabağ müharibəsindən və lokal xarakterli antiterror əməliyyatından sonra ölkəmizin həyatında yeni dövr başlayıb. Prezident İlham Əliyev bildirib ki, indi isə quruculuq vaxtıdır.

Güclü dövlət olan Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpasına müharibə başa çatdıqdan dərhal sonra, vaxt itirmədən başlayıb. İndiki mərhələdə 44 günlük müharibədə işğaldan azad edilən ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın gündəliyində duran əsas məsələlər sırasında yer alır. Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Böyük Qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib.

Eyni zamanda, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib. Həmin tapşırığın icrasının təmin edilməsi məqsədilə imzalanmış Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli Sərəncamına əsasən Strategiya və Dövlət Proqramı üzrə layihələrin hazırlanmasında aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün Baş nazirin sədrliyi ilə Komissiya yaradılıb və tərkibi təsdiq edilib.

Görüşdə bildirildiyi kimi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının ilkin mərhələsində əsas diqqət infrastruktur quruculuğuna yönəldilib. Bunsuz həmin ərazilərdə həyatın bərpasını təmin etmək mümkün olmazdı. Qısa müddətdə bəhs olunan ərazilərdə böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı layihələr reallaşdırılıb. Görülən işlər regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. "Böyük Qayıdış"ın inteqrasiyalı yanaşma ilə təmin olunması real nəticələr verir. Artıq "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı", 8 şəhərin Baş planı, 3 şəhərin isə Müfəssəl planı təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planları işlənilmə mərhələsindədir. Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb.

Separatçılardan təmizlənən Xocavənd rayonu da bərpa-quruculuq işlərindən kənarda qalmayıb. Səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd şəhərində, eləcə də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olublar.

Xatırladaq ki, bir neçə gün əvvəl Xocavənd şəhərinə 50 ailə - 194 nəfər qayıdıb. Ötən ilin sentyabrından indiyədək isə Xocavəndin 5 yaşayış məntəqəsinə - Xocavənd şəhərinə 50 ailə (194 nəfər), Qırmızı Bazar qəsəbəsinə 142 ailə (604 nəfər), Sos kəndinə 85 ailə (360 nəfər), Hadrut qəsəbəsinə 58 ailə (233 nəfər), Xocavənd kəndinə isə 20 ailə (94 nəfər) olmaqla, ümumilikdə 1485 nəfər - 355 ailə qayıdıb. Eyni zamanda, cari ilin sonunadək rayonun yaşayış məntəqələrinə yeni ailələrin qayıdacağının anonsu edilib. Xocavənddə və digər ünvanlarda reallaşdırılan layihələr məmnunluq doğurur. Prezident İlham Əliyev qətiyyətlə bildirib ki, "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək.

# Peşə təhsili - əmək bazarına asan çıxış...

Transformasiyalar dövrünün meydana çıxardığı yeni çağırışlar həmçinin təhsili də əhatə edir. Təhsil hər bir ölkənin, xalqın gələcəyidir və bu sahəyə qoyulan investisiyalar gələcəyə yönəldilən sərmayələr anlamında qəbul olunur.

Təhsillə bağlı yeni çağırışlar isə təhsilalanlara nəzəri biliklərin verilməsi ilə yanaşı, peşə təhsilinin də inkişaf etdirlməsi ilə bağlıdır. Peşə təhsili müasir dövrün tələblərinə cavab verən, rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasında xüsusi rol oynamaqla gəncləri bir növ həyata hazırlayır, gələcəkdə onların əmək bazarına inteqrasiyasını asanlaşdırır. Prezident İlham Əliyevin bu günlərdə regionlara növbəti səfəri çərçivəsində Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışına qatılması bir daha təsdiqləyir ki, ölkəmizdə də peşə təhsilinin inkişafına dövlət səviyyəsində həssas yanaşma sərgilənir.

## 21 peşə təhsili müəssisəsinin tikintisi nəzərdə tutulur



İndiki dövrdə ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilir. Müasir dövlət kimi inkişaf edən Azərbaycan da neft kapitalını insan kapitalına çevirməyi hədəfləyib. Ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında bu istiqamətdə davamlı fəaliyyətlər həyata keçirilir. Təsadüfi deyil ki, Vətən müharibəsindən dərhal sonra, daha dəqiq desək, 2021-ci il fevralın 2-də təsdiqlənən 2030-cu ilədək sosial-iqtisadi inkişaf üçün müəyyən edilmiş milli prioritetlərin hər biri insan kapitalının inkişafını və sosial rifahın daha da yaxşılaşdırlmasını hədəfləyir. Ardıcıllıqla həyata keçirilən islahatlar, tətbiq olunan yeniliklər, təlim, tədris metodları təhsilin dövlət xərclərində də mühüm mövqedə dayanmasını şərtləndirir. Ölkənin dövlət büdcəsində təhsilə ayrılan xərclər ilbəil artırılır. Bunu son 22 ilin müqayisəli statistikasından da aydın şəkildə görmək mümkündür. Əgər 2003-cü ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər təxminən 243 milyon manat təşkil edirdisə, 2025-ci il üçün bu sahəyə ayrılan vəsait 4,94 milyard manat olub. Ümumiyyətlə isə icra olunan strategiya və proqramlar çərçivəsində son illərdə dövlət büdcəsindən təhsilə ayrılan xərclərdə əhəmiyyətli artım özünü göstərir. Bütövlükdə son 10 ildə təhsil xərcləri 3 dəfə, son 5 ildə isə təxminən 60 faiz artıb. Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2024-cü illər ərzində 4000-dək məktəb binası tikilib və ya əsaslı təmir edilib, təhsil ocaqları ən müasir tədris avadanlıqları ilə təchiz olunub. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb. Həmçinin son beş ildə "Böyük Qayıdış" proqramı çərçivəsində Vətən müharibəsi zamanı işğaldan azad olunmuş ərazilərdə də müasir təhsil infrastrukturunun qurulması diqqət mərkəzində saxlanılır.

Son illərdə isə Azərbaycanın təhsil siyasətində peşə təhsilinin inkişafına xüsusi diqqət göstərilir. Bunu qəbul olunan strateji sənədlərdə, o cümlədən 2022-2026-cı illərə aid sosial-iqtisadi inkişaf strategiyasında və "Böyük Qayıdış" proqramında peşə təhsili ilə bağlı mühüm müddəaların yer alması bir daha təsdiqləyir. Ölkəmizdə Peşə Təhsili üzrə Dövlət Agentliyi fəaliyyət göstərir. Peşə təhsilinin inkişafını dəstəkləmək məqsədilə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu (TİF) yaradılıb. Fond dövlət-özəl tərəfdaşlığını gücləndirmək, peşə təhsili müəssisələrinin infrastrukturunu müasirləşdirmək və innovativ layihələri maliyyələşdirmək funksiyasını həyata keçirir.

Burada vacib amillərdən biri də zəruri infrastrukturun qurulmasıdır. Ölkənin dinamik inkişafı və əmək bazarının dəyişən tələbləri rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla yanaşı, bu tələbatın ödənilməsinə imkan verən, müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılmasını zəruri edir. Müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılması peşə təhsilli şəxslərin əmək bazarında xüsusi çəkisini artırmaqla müxtəlif peşələr üzrə ixtisaslı kadrların hazırlanmasını təmin etməyə imkan verir. Bu zərurətdən çıxış edən Prezident İlham Əliyev 5 dekabr 2025-ci il tarixində "Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2026-2030-cu illərdə müasir standartlara cavab verən 21 peşə təhsili müəssisəsinin tikintisi və 2 peşə təhsili müəssisəsinin əsaslı təmiri işlərinin aparılması təmin edilməlidir.

Bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı müvafiq proqramın uğurla icra edildiyinin əyani təsdiqidir. Xatırladaq ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən publik hüquqi şəxs kimi fəaliyyət göstərir. 2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, IT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.

## Ölkə üzrə peşə təhsilinin əhatə dairəsi genişlənir

Hazırda artan tələbat nəzərə alınmaqla ölkə üzrə peşə təhsilinin əhatə dairəsinin genişləndilməsi və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması qarşıya qoyulan əsas məqsədlər sırasında yer alır. Peşə Təhsili üzrə Dövlət Agentliyinin məlumatına əsasən, 2024-cü ildə peşə təhsili müəssisələrinə qəbul olanların sayı 24 800-ə çatıb, cari ildə isə bu rəqəmin təxminən 28 minə çatdırılması nəzərdə tutulur. Bundan başqa, peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində həm keyfiyyət, həm də məzmun baxımından zəruri işlər aparılır. O cümlədən hər il 15 tədris proqramının təkmilləşdirilməsi qarşıya məqsəd qoyulub.

Həmçinin dünya təcrübəsi nəzərə alınmaqla peşə thsili müəssisələrinin maliyyələşmə mexanizmi ardıcıl şəkildə təkmilləşdirilir. İndiyədək 8 mindən artıq tələbənin təhsili yeni mexanizm vasitəsilə maliyyələşdirilib. Bu prosesin 2026-cı ildə 12 min tələbəni əhatə edəcəyi gözlənilir. O cümlədən peşə təhsil müəssisələrində təlim və tədris prosesini aparan müəllimlərin keyfiyyət göstəricilərinin yüksəldilməsi də müzakirə olunan məsələlər sırasındadır. Bütün bunlar isə peşə təhsili üzrə kompleks yanaşmanı özündə ehtiva edən yeni konsepsiyanın hazırlanmasının zəruriliyini gündəmə gətirib.



Son illərdə Azərbaycan təhsil strategiyasının hədəflərindən biri də təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyinin önə çəkilməsidir. Bu sahədə atılan addımlardan biri də hazırda uğurla reallaşdırılan STEAM, "Rəqəmsal bacarıqlar" layihələridir ki, bu layihələrdə iştirak şagirdlərdə ən müasir yeniliklərə dair innovativ bacarıqları ortaya çıxarmaqla nəzəri bilikləri praktik vərdişə çevirməkdə, rəqəmsallaşan dünyada peşəkar mütəxəssis kimi yetişmədə müstəsna rol oynayır.

## STEAM, "Rəqəmsal bacarıqlar" layihələri

2024-2025-ci tədris ilində STEAM əsaslı tədris 400-dək ümumi təhsil müəssisəsində, ümumilikdə, 264 mindən çox şagirdi əhatə edib, 2026-cı ilin sonuna bu sayın 280 min nəfərə çatdırılması planlaşdırılır. STEAM layihəsinin 2025-2026-cı tədris ilində əlavə olaraq 7 yeni ümumi təhsil müəssisəsində də tətbiqi nəzərdə tutulur. Nəticədə, layihənin ümumi əhatə dairəsi 405 məktəbə çataraq, ümumilikdə, 300 000 şagirdi əhatə etməsi gözlənilir. Eyni zamanda, layihənin yeni tədris ilindən ilk dəfə olaraq 3-cü siniflərdə də tətbiqinə başlanılacaq.

"Rəqəmsal bacarıqlar" layihəsi isə 2017-2018-ci tədris ilindən tətbiq edilir. Layihə 2023-2024-cü tədris ilində 531 ümumi təhsil müəssisəsində 400 000-dən çox şagirdi əhatə edib. 2024-2025-ci tədris ilindən daha 230 məktəb layihəyə qoşulub. Ümumilikdə isə layihəyə yeni qoşulacaq məktəblərdə şagird sayı 100 000-dən çoxdur. 2024-2025-ci tədris ilində layihə 762 məktəb üzrə 510 min şagirdi əhatə edib. "Rəqəmsal bacarıqlar"ın 2025-2026-cı tədris ilində əlavə 29 ümumi təhsil müəssisəsində tətbiqi planlaşdırılır. Bununla da layihənin, ümumilikdə, 773 məktəb və 530 000 şagirdi əhatə etməsi gözlənilir.

*Mübariz FEYİZLİ*

# Milli Məclisin iclasında...
# 9 qanun layihəsi müzakirə edilib



*Nardar BAYRAMLI*

Fevralın 27-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 9 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə “Kinematoqrafiya haqqında” Qanunda dəyişikliklər üçüncü oxunuşda qəbul olunub. Qanun layihəsi ölkəmizdə kino istehsalı sahəsində hüquqi tənzimləməni müasir beynəlxalq təcrübəyə uyğunlaşdırmaq, anlayışları dəqiqləşdirmək, dövlət dəstəyinin institusional mexanizmlərini genişləndirmək və kino industriyası üçün investisiya cəlbediciliyini artırmaq məqsədi daşıyır.

Sənəddə bu sahə üzrə anlayışların genişləndirilməsi və dəqiqləşdirilməsi nəzərdə tutulub. Belə ki, layihə ilə Qanunun 1-ci maddəsinə “milli film”, “xarici film”, “birgə istehsal filmi”, “film istehsalı”, eləcə də film istehsalının mərhələlərini (hazırlıq, çəkiliş, tamamlanma) əhatə edən anlayışlar əlavə edilir. Layihədə, həmçinin “yerli prodüser” və “xarici prodüser” anlayışları ayrıca müəyyən edilib. Qeyd olunan dəyişiklik hüquqi münasibətlərdə subyektlərin statusunu dəqiqləşdirəcək, dövlət dəstəyi və təşviq mexanizmlərinin tətbiqi zamanı şəffaflığı artıracaq. Eyni zamanda, Qanunda istifadə edilmiş “müştərək çəkilmiş film” anlayışının “birgə istehsal edilmiş film” anlayışı ilə əvəz edilməsi beynəlxalq hüquqi terminologiya ilə uyğunluq yaradır və normativ-hüquqi aktın dil və üslub baxımından təkmilləşdirilməsinə səbəb olur.

Qanunun 3-cü maddəsinə edilən dəyişikliklə xarici prodüserlərin Azərbaycan ərazisində film istehsalına cəlb edilməsi dövlət siyasətinin ayrıca istiqaməti kimi təsbit olunur. Bu, ölkənin beynəlxalq kino bazarına inteqrasiyasına və mədəni diplomatiyanın inkişafına xidmət edir. Qanunun 13-cü maddəsinə əlavə edilən müddəalarla xarici və birgə istehsal filmləri üzrə çəkilmiş xərclərin həmin Qaydalara uyğun olaraq qismən geri ödənilməsi Qanunda əks olunur. Bu mexanizm bir çox ölkələrdə uğurla tətbiq olunan maliyyə təşviqi vasitəsi olmaqla, xarici investisiyaların cəlb edilməsinə, yerli xidmət sektorunun inkişafına və yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərir.

Beləliklə, qanuna təklif olunan dəyişiklik Azərbaycanda kinematoqrafiya sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə xidmət edəcək. Bu beynəlxalq və birgə istehsal layihələrinin sayının artmasına, ölkənin kino sənayesinə xarici maliyyənin cəlbinə, Azərbaycanın mədəni və yaradıcı potensialının beynəlxalq səviyyədə tanıdılmasına imkan yaradacaq. Eyni zamanda, dövlət və özəl sektor arasında əməkdaşlıq imkanları da genişlənəcək.

Sonra Cəzaların İcrası Məcəlləsində dəyişikliklər üçüncü oxunuşda qəbul olunub. Layihəyə əsasən, məcəllənin 24-cü maddəsi yeni redaksiyada verilir. Həmin maddəyə görə, məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçiriləcək. Bu halda cərimə, ilk növbədə, məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldiləcək. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir və bu halda “İcra haqqında” Qanunun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunacaq.

Qanun layihəsi cərimənin icrasında prioritet ardıcıllığın yenidən nəzərdən keçirilməsini, o cümlədən cərimənin, ilk növbədə, məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilməsini, icra prosesinin operativliyinin artırılmasını və cərimə məbləğinə ekvivalent olmayan əmlaka həbs qoyulmasını və satış zərurətinin minimuma endirilməsini təmin etmək məqsədilə hazırlanıb.

Deputatlar Əmək Məcəlləsində, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda da dəyişiklikləri üçüncü oxunuşda qəbul ediblər. Qeyd edilib ki, dövlət sosial sığorta sistemində elektron xidmətlərə keçidin sürətləndirilməsi və innovativ həllərin tətbiqi mütəmadi olaraq bu sistemlə bağlı dəyişikliklərin aparılmasını və təkmilləşdirilmələrin həyata keçirilməsini zəruri edir. Sosial sığorta nömrəsi verilərkən elektron sistemlərdə həmin şəxsin şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi ilə əlaqələndirilir.

Hazırda sığortaedənlər tərəfindən muzdlu işlə əlaqədar vahid rüblük bəyannamə təqdim edilərkən SSN və FİN məlumatların hər ikisinin daxil edilməsi əlavə iş yükü yaradır və sistemdə məlumat bazasının yüklənməsinə səbəb olur. Qeyd edək ki, əksər dövlət orqanlarının müvafiq sahələrində məlumatların uçotu da FİN üzərindən aparılır. Qanun layihəsində sığortaolunanların sığortaçıda uçotunun yalnız FİN ilə aparılması təklif edilir. Bu dəyişikliklər sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, eləcə də qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq e-sistemlərin inteqrasiyasını sürətləndirəcək.

Beləliklə, sözügedən layihənin qəbul edilməsi sosial sığorta sisteminin fəaliyyətində müasir yanaşmaların tətbiqi və səmərəliliyin artırılmasına imkan verəcək. Eyni zamanda, sığortaedənlər tərəfindən işə qəbul edilərkən sosial sığorta nömrəsi olan sığortaolunanlardan SSN-in tələb edilməsinə və ya başqa üsulla sosial sığorta nömrəsinin öyrənilməsinə ehtiyac qalmayacaq.

Millət vəkilləri “Yerin təki haqqında” Qanuna təklif edilən dəyişiklikləri isə ikinci oxunuşda qəbul ediblər. Dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağ- mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.

Bundan əlavə, “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişikliklər də ikinci oxunuşda qəbul olunub. Qeyd edilib ki, son illərdə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının bütün növləri üzrə ciddi islahatlar həyata keçirilib, qanunvericilik təkmilləşdirilib, son nəticədə daşımaların keyfiyyəti yüksəldilib. Görülən işlərin davamı olaraq avtomobil nəqliyyatı ilə daşımanın bir növü olan ölkədaxili sifarişli daşımalar (buraya taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla, qeyri-müntəzəm sərnişin daşımaları və ölkədaxili yük daşımaları aiddir) sahəsində, xüsusilə bu fəaliyyətə icazə verilməsi sahəsində təkmilləşdirilmənin aparılmasına ciddi zərurət yaranıb. Bir tərəfdən qeyri-müntəzəm sərnişin daşımalarına tələbatın artması, digər tərəfdən isə bu nəqliyyat vasitələrinin iştirakı ilə ağır yol-nəqliyyat hadisələrinin baş verməsinin yüksək olması təklif olunan dəyişikliklərin edilməsini labüd edir.

Qanun layihəsi sərnişinlərin və yüklərin daşınmasında təhlükəsizlik səviyyəsinin yüksəlməsinə, keyfiyyətli xidmətin göstərilməsinə xidmət edir, müxtəlif sığorta hadisələri zamanı sığortaolunanların, xüsusilə zərərçəkən sərnişinlərin qorunmasına və onların həyatına və sağlamlığına zərər dəyməsinə görə sığorta təminatı yaradır.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub. Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının martın 3-də keçiriləcəyini diqqətə çatdırıb.

# İqtisadi Şuranın iclasında...

## Sahibkarlıq fəaliyyətinə maneələrin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məsələlər müzakirə olunub

Nazirlər Kabinetində İqtisadi Şuranın Sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Şuranın keçirilən iclasın gündəliyində “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup”u tərəfindən hazırlanan “Məhkəmə və hüquq” sahəsinə və “Dövlət satınalma prosedurları” sahəsinə dair sahibkarların qaldırdığı aktual məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, İşçi Qrupun rəhbəri Natiq Əmirovun və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədovun məruzələri dinlənilib.



İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişiklikləri hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

### Sahibkarların inzibati yükünün minimuma endirilməsi

Qeyd edək ki, “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu” 2025-ci ilin aprel ayında yaradılıb. İşçi qrupunun yaradılmasında əsas məqsəd sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması və təqdim olunmasında çevik və səmərəli fəaliyyətin təşkilindən ibarətdir.

İşçi qrupun qarşısında sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması tapşırığı qoyulub. Qurumun üzvlərinə biznes mühitinin yaxşılaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, ölkənin iqtisadi inkişafında özəl sektorun payı və rolunun artırılması, sahibkarlıq subyektlərinin inzibati yükünün minimuma endirilməsi və onların biznes imkanlarının genişləndirilməsi, sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması ilə bağlı müvafiq layihə və təkliflər hazırlamaq, onların icrasını təmin etmək tapşırılıb.

Həmçinin dövlət satınalmalarının sadələşdirilməsi və özəl sektorun dövlət satınalmalarında iştirakının asanlaşdırılması və artırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, məhkəmə sistemində, habelə sahibkarlıq sahəsində məhkəmə baxışları ilə bağlı fəaliyyətin çevikliyinin artırılması, sahibkarlıq subyektlərinin fəaliyyətini tənzimləyən institutların requlyativ çərçivəsinin sadələşdirilməsi (prosedur, müddət və xərclər), bütün dövlət resurslarına və xidmətlərinə sahibkarların bərabərhüquqlu çıxışı sahəsində çətinliklərin aradan qaldırılması da İşçi qrupunun əsas fəaliyyət istiqamətlərinə aiddir. Bundan başqa, lisenziya və icazələrin sayının və şərtlərinin optimallaşdırılması, dövlət xidmətləri üzrə zəruri elektronlaşma və rəqəmsallaşmaya nail olunması, dövlət xidmətlərinin göstərilməsində təkrarlığın aradan qaldırılması və oxşar xidmətlərin birləşdirilməsi və xidmətlər üzrə şəffaflığın və əlçatanlığın tam təmin olunması müvafiq iş istiqamətlərini təşkil edir.

### Vətəndaşların və sahibkarların məmnunluğunun artırılması

“Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu”nun digər məqsəd prinsiplərinə dövlət qurumlarında daxili strukturlar tərəfindən icra olunan bir sıra layihələrin (təmir, tikinti, İT xidmətləri, məsləhət xidmətləri, iaşə xidmətləri və s.) özəl sektora ötürülməsi, ödənişli dövlət xidmətlərinin təşkili və göstərilməsində özəl sektorun rolunun artırılması, özəl sektora ötürülməsi mümkün olan xidmətlərin özəl sektora ötürülməsi ilə dövlət xidmətlərinin sayının azaldılması, vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, müxtəlif sektorlar üzrə inzibati prosedurların tətbiqi funksionallığının və səmərəliliyinin yüksəldilməsi, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması və təqdim olunmasında çevik və səmərəli fəaliyyətin təşkili məsələləri də daxildir.

Dövlət başçısı tərəfindən nümayiş etdirilən güclü siyasi iradəyə uyğun olaraq ölkədə iqtisadi aktivliyin artırılması və insanların iş yerləri ilə təmin edilməsi iqtisadi siyasətin əsas prioritetidir və biznesə ən yüksək səviyyədə dəstək verilir. Biznes icmasının və sahibkarlıq assosiasiyasının üzvləri arasında aparılan sorğular göstərir ki, sahibkarlara yaradılan maneələr məqsədli dövlət proqramlarının icrasını gecikdirir. Ona görə də bu halların aradan qaldırılması üçün davamlı addımlar atılmalı, elektron xidmətlərin tətbiqi genişlənməli, rəqəmsal arxitekturaya keçid üçün daha əhatəli tədbirlər görülməlidir. Bu tədbirlərin reallaşması və daha əhatəli olması sahibkarlar üçün əlavə motivasiya verir, onların ölkəmizin sosial-iqtisadi inkişafında töhfələrini artırır.

Yuxarıda qeyd edilən bütün istiqamətlər üzrə son bir ildə İşçi qrupu tərəfindən bir çox təklif və təşəbbüslər hazırlanaraq müvafiq qurumlara təqdim edilib və bu istiqamətdə zəruri addımlar atılıb, ancaq bəzi strukturlarda biznesin fəaliyyətinə çətinlik yaradan texniki-hüquqi mexanizmlər həll olunmamış qalır. Bu baxımdan İşçi qrupu səviyyəsində atılan addımlar dövlət və özəl sektorun birgə fəaliyyətində yeni imkanlar yaratmaqla, qarşıya çıxan maneə və çətinliklərin həllinə səbəb olacaq.

Beləliklə, İqtisadi Şuranın iclasında müzakirə olunan istiqamətlər üzrə növbəti addımların atılması sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılmasına, biznes mühitinin yaxşılaşdırılmasına, ümumilikdə biznes sektorunda davamlı islahatların genişlənməsinə mühüm təkan verəcək.

*ELBRUS CƏFƏRLİ*

# Üç dost dövlətin müttəfiqlik nümunəsi






## Bakı, Tbilisi və Ankara iqtisadi əməkdaşlığın yeni prioritetlərini müəyyənləşdirib

Fevralın 26-da Gürcüstanın Kaxeti bölgəsinin Telavi şəhərində Gürcüstan-Azərbaycan-Türkiyə VII Azərbaycan-Gürcüstan-Türkiyə Biznes-forumu keçirilib. Gürcüstanın Ticarət və Sənaye Palatası, Türkiyənin Xarici İqtisadi Əlaqələr Komitəsi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə hər 3 ölkənin iqtisadiyyat nazirləri, 300-ə yaxın iri şirkətin təmsilçisi iştirak edib. Forumun məqsədi tərəflər arasında iqtisadi əməkdaşlığın möhkəmlənməsinə töhfə vermək, investisiya təşviqini gücləndirmək, ticarət dövriyyələrini artırmaq, regional əməkdaşlığı genişləndirmək və yeni əməkdaşlıq istiqamətlərini müəyyən etmək olub.

Üçtərəfli Biznes-forum Azərbaycan, Türkiyə və Gürcüstan arasında regional əməkdaşlığın mühüm platforması hesab edilir və müştərək iqtisadi inteqrasiyanın inkişafında mühüm rol oynayır. Bu cür yüksəksəviyyəli görüşün keçirilməsi mühüm siyasi və regional əhəmiyyət daşıyır. Üç dost dövlətin bu nümunəvi formatı, eyni zamanda, siyasi-iqtisadi, humanitar müttəfiqliyin gündəliyini formalaşdırır, perspektiv fəaliyyət gündəliyini tərtib etmək baxımından strateji yol xəritəsi hesab olunur.

### Üçtərəfli əməkdaşlıq formatı regionda sabitliyə və inkişafa töhfə verir

Tədbirdə üç ölkə arasında iqtisadi inteqrasiyanın gücləndirilməsi və tərəfdaşlığın səmərəliliyinin daha da artırılması imkanları dəyərləndirilib, ikitərəfli və üçtərəfli ticarət münasibətləri barədə məlumat verilib. Biznes-forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarovun vurğuladığı kimi Azərbaycan Türkiyə və Gürcüstanla çox müsbət zəngin iqtisadi, ticarət, qarşılıqlı sərmayə əlaqələrinə malikdir. Üçtərəfli əməkdaşlıq formatı regionda sabitliyin və dayanıqlı iqtisadi inkişafın möhkəmlənməsinə, enerji, nəqliyyat-logistika və ticarət əlaqələrinin genişlənməsinə mühüm töhfə verir. Bu işbirliyi formatı çərçivəsində reallaşdırılan layihələr regionun enerji mənzərəsini yenidən formalaşdırıb və Avropanın ənənəvi enerji mənbələrindən asılılığını azaldıb. Regional bağlantıların gücləndirilməsi üçün strateji imkanlar vurğulanıb. Enerji resurslarından effektiv istifadə, Orta Dəhlizin potensialının reallaşdırılması, rəqəmsal tranzit infrastrukturunun təkmilləşdirilməsi, ölkələrimizin ixrac imkanlarının artırılması və ticarət əlaqələrindəki dinamikanın davamlı dəstəklənməsinin önəmi diqqətə çatdırılıb. Bildirilib ki, təchizat zəncirlərinə investisiyaların cəlb edilməsi və işgüzar dairələr arasında sinerjinin təşviqi dayanıqlı iqtisadi ekosistemin formalaşdırılmasına xidmət edir.

Azərbaycan sərmayə və kapital təşviqlərində də regional təşəbbüskarlığı ilə fərqlənir. Ölkəmiz həm Türkiyə, həm də Gürcüstan iqtisadiyyatına davamlı sərmayələr qoyub və bu göstərici üzrə aparıcı sıradadır. Azərbaycan qardaş Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq, Gürcüstan iqtisadiyyatına isə 4 milyard dollara yaxın sərmayə yatırıb. İnvestisiyalar əsasən enerji, nəqliyyat və əlaqəli infrastruktur sahələrini əhatə edir. Təkcə SOCAR-ın Türkiyədəki sərmayələri 15 milyard, Gürcüstandakı investisiyaları isə 2 milyard dolları ötüb. Azərbaycan uzun illərdir ki, Cənubi Qafqazın lider investoru kimi Gürcüstan iqtisadiyyatının kapital təchizatında aparıcı yer alır.

### Ticarət və investisiyalar sahəsində səmərələşdirici təkliflər

Türkiyənin ticarət naziri Ömer Bolat bildirib ki, Azərbaycan və Türkiyə bir çox iri layihələri uğurla reallaşdırıblar: “Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ərzurum qaz, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP), STAR Rafineriyası kimi böyük layihələr həyata keçirilib. Naxçıvan istiqamətində dəmir yolu və qaz xətləri çəkilib. Gürcüstan da bütün bu layihələrdə daim tərəfdaş və iştirakçı ölkə olub.

Nazir qeyd edib ki, Cənubi Qafqazın geostrateji mövqeyi sayəsində nəqliyyat və logistika marşrutları böyük əhəmiyyət qazanır. Azərbaycan, Türkiyə və Gürcüstan Avrasiyanın nəqliyyat xəritəsində böyük potensiala malik Orta Dəhlizin də əsas iştirakçılarıdır. Bu dəhliz regionu Avropa və Asiya arasında mühüm tranzit mərkəzinə çevirir. Eyni zamanda, Azərbaycan və Gürcüstan “Xəzər-Qara dəniz-Avropa” enerji dəhlizi layihəsində də iştirak edir.

Ö.Bolat hazırda müştərək iqtisadi platforma çərçivəsində ticarət, investisiyalar, enerji, nəqliyyat, xidmətlər, liman və avia əməliyyatları, informasiya texnologiyaları və süni intellekt sahələrində əməkdaşlığın artırılması üçün stimullaşdırıcı və səmərələşdirici təkliflər hazırlandığını vurğulayıb. Həmçinin institusional sahələrdə qanunvericilikdə optimallaşdırma və güzəştlərin tətbiqi istisna olunmur. Məqsəd həmin sahələrdə bisnes nümayəndələri arasında mövcud maneələri aradan qaldırmaqdır. Ticarət və investisiyalar sahəsindəki problemlərin həlli ölkələr arasında daha sıx iqtisadi inteqrasiyanı təmin edəcək.

### Yeni müştərək müəssisələrin yaradılması təşəbbüsləri

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvirikaşvili isə bildirib ki, Azərbaycan-Gürcüstan-Türkiyə biznes-forumu hər üç ölkə arasında iqtisadi, ticari əlaqələrin genişlənməsində böyük rol oynayacaq, Avropa və Asiya ilə də əlaqələrin şaxələnməsinə imkan verəcək. Əminəm ki, forum dövlətlərimiz arasındakı mövcud əlaqələri, həmçinin dostluğumuzu və tərəfdaşlığı daha da möhkəmləndirəcək.

Gürcüstanda Azərbaycanlı İş Adamları Birliyinin (AZEBI) İdarə Heyətinin sədri Nəriman Qurbanov bildirib ki, hazırda Gürcüstanda 1500-dən çox Azərbaycan kapitallı müəssisə fəaliyyət göstərir ki, onların böyük bir qismi müştərək müəssisələrdir. Eləcə də Azərbaycanda Gürcüstan kapitalı ilə fəaliyyət göstərən müəssisələrin sayı artmaqdadır. Bu qarşılıqlı işbirliyi münasibətlərin daha da genişlənməsinə, yeni müəssisələrin yaranmasına, sərmayə qoyuluşu həcminin artmasına geniş imkanlar yaradır.

N.Qurbanov Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının daha geniş imkanlar yaradacağına əminliyini ifadə edib. Bildirib ki, bu əməkdaşlıq formatı regionun iqtisadi inkişafı ilə yanaşı, sülh və sabitliyin, təhlükəsizliyin daha da artmasına səbəb olacaq.

### Ermənistanın da üçtərəfli platformaya qoşulması mümkün ola bilər

Hazırda 3 ölkə arasında enerji, nəqliyyat dəhlizləri, qarşılıqlı sərmayə, turizm və bir sıra digər sahələrdə əldə edilmiş uğurlar növbəti mərhələdə yeni sahələrin əlavə edilməsi üçün çox gözəl imkan və fürsət yaradır. Orta Dəhlizin səmərəliliyinin daha da artırılması, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan üzərindən Zəngəzur dəhlizinin həyata keçirilməsi, Zəngəzur-Qars və Naxçıvan-Qars dəmir yolu layihələrinin reallaşdırılması müsbət rol oynayacaq, ümumilikdə Orta Dəhlizin, eləcə də Cənubi Qafqazın tranzit və regional ticarətdə rolunu daha da artıracaq.

Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Səlcuk Akatın qeyd etdiyi kimi Azərbaycan və Ermənistanla sülh sazişinin imzalanması istiqamətində səylərin artması və qarşılıqlı iqtisadi təmasların güclənməsi regionda daha geniş rifah formatının yaranmasına ümidləri artırır. ABŞ Vitse-prezidentinin bu yaxınlarda Ermənistan və Azərbaycana səfəri region üçün çox önəmli hadisə olmaqla, iqtisadi-ticari əməkdaşlıq coğrafiyasını formalaşdırmağa təkan verib və Azərbaycan-Gürcüstan-Türkiyə iqtisadi platformasına gələcəkdə Ermənistanın da qoşulması mümkün ola bilər. ABŞ Qafqaz və Mərkəzi Asiyada investisiyalarını artırmaq niyyətindədir və bütün bunlar sülh prosesinə töhfə verə biləcək mühüm inkişaf layihələrinə hesablanıb. Bu isə Ermənistanın da regional inteqrasiya zəncirinə qoşulmasını tezləşdirə bilər.

Forum çərçivəsində keçirilən “Biznes liderlərinin perspektivləri” mövzusunda panel müzakirəsində ticarət və investisiya əlaqələrinin dərinləşdirilməsi, həmçinin yeni tərəfdaşlıqların qurulması imkanları haqqında fikir mübadiləsi aparılıb. Üç ölkənin biznes nümayəndələri yeni imkanlar çərçivəsində birgə layihələrin icrası üçün öz niyyət və planlarını təqdim ediblər.

*E.CƏFƏRLİ*

# Nüvə triadası: qlobal güc balansında yeni ad...

## "START-ın sonu - silahlanma yenidən START götürəcəkmi?

XXI əsrdə bəşəriyyət elmi-texniki tərəqqinin zirvəsinə yüksəlsə də, paradoksal olaraq öz mövcudluğunu sual altına alan ən böyük təhlükələrdən biri ilə - qlobal nüvə təhdidi ilə üz-üzə qalmaqda davam edir. BMT tərəfindən dəfələrlə bəyan edildiyi kimi, nüvə silahlarının yayılması və modernləşdirilməsi beynəlxalq təhlükəsizlik sistemində dərin çatlar yaradır. Soyuq müharibənin başa çatması ilə formalaşan nisbi sabitlik illüziyası XXI əsrdə artıq öz yerini yenidən güclənən geosiyasi rəqabətə, regional münaqişələrə və hərbi doktrinalarda nüvə faktorunun açıq şəkildə qabardılmasına verib.

### Dünya üçün gerisayım - Müqaviləsiz nüvənin təhdidi qırmızı xəttləri silir

Tarix göstərir ki, NATO ilə Varşava Paktı arasında yaşanan qarşıdurma illərində dünya bir neçə dəfə nüvə fəlakətinin astanasına gəlib. Bu gün isə təhlükə təkcə ikiqütblü sistemlə məhdudlaşmır; yeni nüvə dövlətlərinin meydana çıxması, mövcud arsenalın texnoloji cəhətdən təkmilləşdirilməsi və silahlara nəzarət mexanizmlərinin zəifləməsi riskləri daha da artırır. Nüvə başlıqlarının sayının azaldılması ilə bağlı razılaşmaların pozulması və ya icrasının sual altına düşməsi beynəlxalq etimadı sarsıdır.

### "START" verilən kimi...

ABŞ ilə Rusiya arasında nüvə silahlarına nəzarət üzrə müqavilənin müddətinin bitməsindən artıq 23 gün ötür. Müqavilənin yenilənməsi və ya hansısa bir formada təzahür etməsi istiqamətində işlər görülsə də, danışıqlar aparılsa da, real nəticələrin əldə olunmaması bütün bəşəriyyəti narahat etməkdədir. Qeyd edək ki, bu müqavilənin əsası hələ "ikiqütblü dünyanın" mövcud olduğu dövrdə, yəni 1990-cı illərin əvvəlində qoyulub. Nüvə silahlarına nəzarət üzrə birinci saziş SSRİ ilə ABŞ arasında 1991-ci ilin 31 iyulunda imzalanıb. İttifaqın dağılması ilə müqavilə də yenilənib - 1993-cü ilin 3 yanvarında Corc Buş Rusiyanın sabiq prezidenti Boris Yeltsin ilə oxşar məzmunlu müqaviləni - START 2-ni imzalayıb.

Müqavilənin müasir məzmunu isə yaxın keçmişdə, 2010-cu ildə müəyyənləşib. Belə ki, Yeni START müqaviləsi (START3 adlanır) 2010-cu ildə Praqada o zamankı Rusiya prezidenti Dmitri Medvedev ilə dövrün ABŞ dövlət başçısı Barak Obama tərəfindən imzalanıb. Müqavilə nüvə arsenalları digər dövlətlərinkindən qat-qat artıq olan Rusiya və ABŞ-ın strateji hücum silahları üçün kəmiyyət və keyfiyyət çərçivələrini müəyyən edən əsas mövcud sazişdir. Sənəd yerləşdirilmiş nüvə başlıqlarının hər tərəf üçün 1550-yə, qitələrarası ballistik raketlərin, sualtı qayıqlardan buraxılan ballistik raketlərin və ağır bombardmançı təyyarələrin isə 700-ə endirilməsini nəzərdə tuturdu. Nüvə obyektlərinin yoxlanılması qarşılıqlı yoxlama vasitəsi kimi Yeni START Müqaviləsinə daxil edilmişdi. Yeni START Müqaviləsi ilkin olaraq on ildən sonra - 2021-ci ilin fevralına qədər başa çatmalı idi. Bununla belə, razılaşma onun qarşılıqlı razılaşma yolu ilə əlavə beş il müddətinə uzadılması imkanını ehtiva edirdi və bu addım atıldı. Hazırkı razılaşmaya əsasən Yeni START Müqaviləsi 2026-cı il fevralın 5-də başa çatıb. Bu isə nüvə raketlərinin imkanlarını birbaşa məhdudlaşdıran sonuncu beynəlxalq müqavilənin aradan qalxması deməkdir. Siyasi mütəxəssislər bu müqavilənin müddətinin artırılmamasını dünya üçün böyük fəlakət adlandırırlar.

Xatırladaq ki, 2023-cü ilin fevralında Putin Rusiyanın Yeni START Müqaviləsində iştirakını dayandırdığını elan etmişdi. O, Moskvanın müqavilədən çıxmadığını, sadəcə, iştirakını dayandırdığını vurğulamışdı - Rusiya dövlət başçısı o zaman atdığı addımın ABŞ-ın keçmiş prezidenti Co Bayden administrasiyasının apardığı siyasətlə əlaqələndirmişdi.

### "Nüvə Klubu"nda kimlər var?

Bu gün dünyanı düşündürən ən mühüm suallardan biri, "nüvə klubu" üzvlərinin arsenalındakı qlobal ölüm təhdidinin sayıdır. Son araşdırmalara görə, hazırda doqquz ölkə nüvə silahına malikdir: Rusiya, Çin, Böyük Britaniya, Hindistan, Şimali Koreya, Fransa, Pakistan, İsrail və Amerika Birləşmiş Ştatları. Qeyd etmək lazımdır ki, İsrail heç vaxt rəsmi olaraq nüvə silahına sahib olduğunu təsdiqləməyib, baxmayaraq ki, əksər beynəlxalq agentliklər bu başlıqların varlığına əmindirlər. Bundan əlavə, İsrail Nüvə Silahlarının Yayılmaması Müqaviləsinin (NPT) tərəfi deyil.

Vurğulandığı kimi, son statistik rəqəmlərə əsasən dünyada ümumilikdə 12.300-dən çox nüvə döyüş başlığı mövcuddur - bunlardan yalnız 9.600-ü aktiv hərbi ehtiyat sayılır. Üzdə rəqəm çox görünsə də, bu silahların əksəriyyəti iki ölkənin "anbarlarında" yatır. Cəmi iki ölkə - Rusiya və ABŞ dünya nüvə silahlarının 86,8 faizinə sahibdirlər, silahların qalan hissəsi isə yeddi digər dövlət arasında bölünüb.



Soyuq Müharibə on illər əvvəl başa çatsa da, ABŞ hələ də böyük bir nüvə silahı ehtiyatını qoruyur. Bu, ABŞ-ın "nüvə triadası" konsepsiyası ilə uyğundur - üç nüvə çatdırılma sisteminin daimi mövcudluğunu tələb edən siyasət: sualtı qayıqlardan buraxılan ballistik raketlər (SLBM), qitələrarası ballistik raketlər (ICBM) və havadan buraxılan nüvə silahları (bombardmançılar).

Amerika Alimləri Federasiyasının (FAS) "Dünya Nüvə Qüvvələrinin Statusu 2025" hesabatına görə, Soyuq Müharibənin bitməsindən bəri arsenal əhəmiyyətli dərəcədə azaldılsa da, ABŞ hələ də 5177 döyüş başlığı saxlayır.

### ABŞ-ın nüvə ehtiyatı

Silahlar üç kateqoriyaya bölünür:

- Yerləşdirilmiş döyüş başlıqları: ballistik raketlərə quraşdırılmış və bombardmançı bazalarında saxlanılan döyüş başlıqları. ABŞ-da bunlardan 1670-i var.
- Ehtiyat (anbarda): Lazım gələrsə istifadə üçün 1930 döyüş başlığı mövcuddur.
- İstismardan çıxarılan: Ümumi sayı 1477 olan bu silahlar istifadə üçün nəzərdə tutulmayıb, lakin hələ tam məhv edilməyib.

Beləliklə, ABŞ-ın 3700 istifadəyə yararlı nüvə başlığı var. ABŞ nüvə silahı texnologiyasını inkişaf etdirməyə davam edir, baxmayaraq ki, sınaqlar çoxsaylı müqavilələrlə ciddi şəkildə məhdudlaşdırılır. Bir sıra müdafiə podratçıları və dövlət qurumları raketlər və döyüş başlıqları istehsal edir və Texas və Tennessi ştatlarındakı obyektlərdə modernləşdirmə işləri aparılır. Bu, ölkənin nüvə arsenalının daimi hazırlıq vəziyyətində saxlanılmasını təmin edir.

### Rusiyanın nüvə arsenalı

Bu siyahıya liderlik Rusiyaya məxsusdur. Təsadüfi deyil ki, vaxtilə SSRİ tarixin ən güclü nüvə silahı sayılan və partlayıcı gücü 50 meqaton olduğu təxmin edilən Çar Bombasını hazırlayıb sınaqdan keçirmişdi.

FAS 2025 hesabatına görə, bu gün Rusiyanın ümumi ehtiyatı 5459 döyüş başlığıdır. Rusiya arsenalı aşağıdakı kimi bölünür:

- Yerləşdirilmiş döyüş başlıqları - 1780 nüvə başlığı;
- Ehtiyat (anbarda) - 2591 döyüş başlığı;
- İstismardan çıxarılan - 1150 döyüş başlığı.

Beləliklə, Rusiyanın "rəqibindən və ən yaxın izləyicisindən" daha artıq - 4309 istifadəyə yararlı döyüş başlığı var - Rusiyanın ABŞ-dan 609 nüvə başlığı daha çoxdur, lakin bu fərq dünyanın tamamilə məhvinə səbəb ola biləcək silahların sayının fonunda az əhəmiyyət kəsb edir. ABŞ kimi, Rusiya da silahlarının müxtəlif hazırlıq vəziyyətində saxlayır: ölkədə nüvə sualtı qayıqları, strateji bombardmançı təyyarələr və lazım gələrsə, işə salmağa hazır qitələrarası ballistik raketlər var.

Qeyd edək ki, bu, hələ azaldılmış rəqəmdir - nəzərə alsaq ki, 1986-cı ildə dünyada təxminən 70374 nüvə başlığı var idi, bu gün artıq silahların əhəmiyyətli dərəcədə azaldığını görə bilərik. Nüvə başlıqlarının istismardan çıxarılması və ya məhv edilməsi prosesi isə uzun çəkdi.

### Vaşinqton Pekini "dəvət edir"...

Vurğulandığı kimi, START müqaviləsinin yenilənməsi aktiv müzakirə edilir. Amma ortada yeni bir nüans var. ABŞ müqaviləyə yeni bir tərəfi, dünyanın demək olar ki, 3-cü nüvə ölkəsi sayılan Çini də cəlb etmək fikrindədir. Belə ki, ABŞ Dövlət katibi Marko Rubio jurnalistlərə açıqlamasında deyib ki. "21-ci əsrdə əsl silahlara nəzarət sazişinin olması üçün orada Çinin iştirakı vacibdir". O, Çinin ehtiyatlarının kəskin şəkildə artdığını bildirib və onların ABŞ və Rusiyadan hələ çox geridə qaldıqlarına dair iddialarının əlaqəsiz olduğunu əlavə edib. "Prezident qəti şəkildə inanır ki, 21-ci əsrdə hər hansı bir razılaşmanın, nüvə sazişinin qanuni olması üçün bu, üç ölkəni - ABŞ, Rusiya və Çini əhatə etməlidir.

Onlar bunu etməyə hazır olmadıqlarını açıq şəkildə bildiriblər. Amma biz buna davam edəcəyik. Düşünürük ki, belə bir razılığa gələ bilsək, dünya üçün yaxşı olar" - deyə Rubio vurğulayıb.

Xatırladaq ki, Moskva və Vaşinqton hələ 2019-2020-ci illərdə Yeni START Müqaviləsinin beş illik uzadılması barədə danışıqlar apararkən o dövrün ABŞ prezidenti Donald Tramp Pekinin müqaviləyə qoşulmasında israr edirdi. Müqavilənin 2021-ci ildən sonrakı uzadılmaması qorxusu da məhz Çin faktorundan qaynaqlanırdı. Hələ həmin dövrdə ABŞ Rusiyanı Çinə təsir göstərməyə çağırmışdı, lakin Moskva Pekinin qoşulacağı təqdirdə Böyük Britaniya və Fransanın da müqaviləyə qoşulmalı olduğunu qeyd etdi. 2021-ci ildə vəzifəyə başlayan Co Bayden administrasiyası Yeni START Müqaviləsini ön şərt olmadan imzaladı.

### Çin irəliləyir...

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) 2024-cü ildə açıqladığı hesabatında nüvə başlıqlarının hazırlanmasında xüsusi fəal ölkə kimi Çini və KXDR-i göstərmişdi. İnstitutun ekspertləri belə nəticəyə gəlmişdilər ki, yaxın gələcəkdə nüvə ölkələri arasında arsenalların genişləndirəcək dövlətlər məhz onlar olacaqlar. SIPRI-nin hesablamalarına görə, Çin nüvə qüvvələrini əhəmiyyətli dərəcədə artırıb: bu say 2023-cü ildə 410 idisə, 2024-cü ildə 500-ə qədər artıb. Yeni məlumatlara görə isə bu artım 600-ə çatıb. Lakin, Amerika və Rusiya döyüş başlıqlarından fərqli olaraq, Çinin demək olar ki, bütün döyüş başlıqları buraxılış qurğularından ayrı saxlanılır və işlək vəziyyətdə deyil. Pentaqon 2025-ci il üçün Konqresə təqdim etdiyi illik hesabatında (ən son dərc olunmuş) eyni rəqəmə istinad edir - orada 2030-cu ilə qədər Çinin 1000 döyüş başlığına sahib olacağını təxmin edilir.

Analitiklər də proqnozlaşdırır ki, bu arsenal artmaqda davam edəcək - qüvvələrin necə tənzimlənməsindən asılı olmayaraq, onilliyin sonuna qədər Çin, Rusiya və ABŞ ilə eyni sayda qitələrarası ballistik raketlərə (ICBM) sahib ola bilərlər. Baxmayaraq ki, Çin hələ də bu iki ölkədən daha az nüvə başlığına sahibdir.

### Triadanın dəniz "qolu"...

Çinin nüvə triadasının dəniz komponenti 1990-cı illərin sonlarından bəri hazırlanmış altı 094 Jin tipli SSBN-lərdən (nüvə enerjisi ilə işləyən ballistik raket sualtı qayıqları) ibarətdir. Onlar Çinin cənubundakı Hainan adasında yerləşir və əsas patrul ərazisi Cənubi Çin dənizidir. Onların ilk patrul xidməti 2015-ci ildə baş tutub.

Hər bir sualtı qayıq 12-yə qədər sualtı qayıqla buraxılan ballistik raket daşıya bilər. 2022-ci ildən bəri SSBN-lər 9000 km-dən çox mənzilə malik JL-3 (NATO-nun hesabat adı CSS-N-20) raketlərini yerləşdiriblər. Alyaska, Havay, Quam, Rusiya və Hindistandakı hədəflərə əlavə olaraq, Çin sularından buraxılan bu raketlər şimal-qərb kontinental Amerika Birləşmiş Ştatlarına çata bilər. Bu raket tək bir 425 karatlıq döyüş başlığı çatdıra bilər. Dəniz komponentinə həmçinin 7000 km-dən çox mənzilə 700 karatlıq döyüş başlığı çatdıra bilən JL-2 (NATO-nun hesabat adı CSS-N-14) raketləri daxildir.

### İlk dəfə paradda...

2025-ci ildə keçirilən hərbi paradda Çin ilk dəfə nüvə triadasının hər üç komponentini nümayiş etdirdi. Ötən il sentyabrın 3-də Pekində Yaponiya üzərində qələbənin 80-ci ildönümü münasibətilə keçirilən hərbi paradda Çin ilk dəfə olaraq bütün nüvə triadasını - quru, dəniz və hava əsaslı strateji nüvə qüvvələrini üzə çıxardı. Qeyd edək ki, Çinin yerüstü nüvə qüvvələri əsasən ballistik raketlərə (ICBM) malik mobil raket sistemlərinə qoyulub. DF-61 (Dongfeng-61 və ya "Şərq Küləyi") əvvəllər məlum olmayan ən son ICBM-dir. Görünüşü Çinin 2020-ci ildə yerləşdirdiyi mobil versiyası olan DF-41 raketinə bənzəyir. DF-41 Çinin arsenalındakı ən güclü ICBM-dir; müxtəlif ekspert qiymətləndirmələrinə görə, o, 15.000 km-ə qədər məsafəyə on döyüş başlığı daşıya bilər. JL-3 (Julang-3 və ya "Böyük Dalğa") 9000 km-dən çox mənzilə malik sualtı qayıqdan buraxılan ballistik raketdir (SLBM) - bu raket Çin sularından buraxılarsa, şimal-qərb kontinenti üzrə Amerika Birləşmiş Ştatlarına çata bilər. Bu silahların içində ən təccüblən-dirəni isə DF-5C raketi olmuşdu - maye yanacaqla işləyən raketin mənzili 20.000 km-dir - nəzərə alsaq ki, akvatorun uzunluğu 40 min km-dir, bu raket yarım dünya qövü vurmaq qabiliyyətindədir. Raket üç hissədə üç nəqliyyat vasitəsində daşınır. Onun dəqiq hansı üsulla buraxılacağı isə məlum deyil. Statistikaya görə, onun uçuş sürəti onlarla Mach (1 Mach səs sürətidir, təxminən 1200 km/saat) - DF-5C ənənəvi və ya nüvə başlıqları ilə silahlanmış birdən çox müstəqil hədəfə alına bilən geri qayıtma vasitəsi (MIRV) də daşıya bilər.

### "Ağ kitab"ın qadağası...

Bütün bunlarla yanaşı, Çin rəsmi olaraq "heç bir vaxt və heç bir şəraitdə" nüvə silahından istifadə etməyəcəyini elan etmiş iki ölkədən biridir. Bu yanaşma Çin Xalq Respublikasının Dövlət Şurası tərəfindən 2025-ci ilin noyabr ayında dərc edilmiş "Yeni Dövrdə Çində Silahlara Nəzarət, Silahsızlaşdırma və Yayılmama" adlı Ağ Kitabda öz əksini tapıb. Sənəddə deyilir: "Çin heç vaxt və heç bir şəraitdə nüvə silahından ilk istifadə etməyən ölkə kimi öz prinsipinə sadiq qalıb və qeyd-şərtsiz olaraq nüvə silahı olmayan dövlətlərə və ya nüvə silahından azad zonalara qarşı nüvə silahından istifadə etməməyi və ya istifadə etməklə hədələməməyi öhdəsinə götürür".

Kitabda qeyd olunur ki, Çin heç vaxt digər ölkələri nüvə silahları ilə təhdid etməyib, onları xaricdə yerləşdirməyib və ya digər ölkələrə nüvə çətiri verməyib.

Vurğulandığı kimi, Pekin nüvə arsenalları haqqında məlumatı açıqlamır. Çin şəffaflığı ilk növbədə niyyətlərin aydınlığı və nüvə doktrinasının şəffaflığı kimi qəbul edir. Çin Xarici İşlər Nazirliyinin Silahlara Nəzarət Departamentinin rəhbəri Fu Konq 2020-ci ildə "Kommersant"a verdiyi müsahibədə bildirmişdi ki, Pekin "qeyd-şərtsiz ilk istifadə etməmək siyasətinə" sadiqdir, ölkənin nüvə arsenalı məhduddur. Onlar yalnız çəkindirmə üçün vacibdir.

Paralel olaraq Çin nüvə qüvvələrini modernləşdirdiklərini gizlətmir, lakin onları artırmaq planlarının olmadığına zəmanət verir. "Biz nüvə qüvvələrinə yalnız çəkindirici vasitə kimi baxırıq. Nüvə silahlarının yeganə məqsədi budur. Onlar döyüş meydanında istifadə edilə bilməz", Fu Konq bildirib.

*Pərviz SADAYOĞLU*

# Reytinq arxasında itən dəyərlərimiz...

## Problem həllini tapacaq?

*Yeganə BAYRAMOVA*



Televiziya məkanı hər zaman diqqət mərkəzində olub. Etiraf edək ki, bu gün yayımlanan bəzi verilişlər, şou proqramlar əyləncə məqsədini itirərək, mənəvi-əxlaqi dəyərlərimizi arxa plana atmaqdadır. Bu proqramlar bir tərəfdən diqqət çəkir, reytinqləri artırır, digər tərəfdən sosial davranış modellərinə, hətta ailə dəyərlərimizə zərbə vurur.

Son günlər Azərbaycan Respublikası Audiovizual Şurasının rəsmi veb-saytı, elektron poçtu və digər əlaqə vasitələri ilə vətəndaşlardan, eyni zamanda media nümayəndələrindən şikayət və sorğular daxil olur. Həmin müraciətlərin mövzusu bir sıra televiziya proqramları və bu proqramlara dəvət olunan qonaqların tənqid olunması ilə bağlıdır.

**Efirdə baş verənlər yeni hadisələr deyil...**

Mətbuat Şurası İdarə Heyətinin üzvü, BDU-nun Jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli son zamanlar televiziyalardakı neqativ hallarla bağlı “Yeni Azərbaycan”a açıqlama verib. Professor söyləyib ki, efirdə baş verənlər yeni deyil: “Televiziyalar üçün məqsəd yalnız pul qazanmaq, sponsor cəlb etmək və ucuz vasitələrlə reytinq qazanmaqdırsa, bu halda problemlər həmişə qalacaq. Bu gün efirdə baş verənlər yeni hadisələr deyil. Sadəcə olaraq, efirdə baş verənlərin kəm-kəsirlərinin uzantısı sosial şəbəkələrdə yayılır. Belə olan halda daha çox insan televiziya aparıcıların problemlərindən xəbərdar olur. Zaman etibarilə son illərdə Milli Məclisdən tutmuş adi auditoriyalarda televiziyadakı nöqsanlar tənqid olunub. Xüsusən, şou proqramların vəziyyəti, aparıcıların həddindən artıq sərbəst davranması, etik çərçivələri aşması, verilişə gələn qonaqları təhqir etməsi, tamaşaçıların rəyinə hörmətsiz yanaşmaları barədə çox danışılıb. Hazırda bu məsələyə bir az daha çox diqqət yetirilir”.

**Yaxşı verilişlərimiz də var**

Professor qeyd edib ki, televiziya məkanını tamamilə qara rəngdə göstərmək də düzgün deyil: “Problemlər televiziyalarda kifayət qədər çoxdur. Lakin televiziya məkanını tamamilə qara rəngdə göstərmək də düzgün deyil. Yaxşı telekanallarımız, yaxşı verilişlərimiz, yaxşı aparıcılarımız da var. Amma söhbət hazırda tamaşaçı narazılığına səbəb olan veriliş seqmentindən - əyləncəli musiqili şou proqramlardan gedir. Bu proqramların bəzi aparıcıları tamaşaçıların zövqünü təmin etmir, etik normaları pozur”.

**Əsas məsuliyyət TV rəhbərlərinindir**

Q. Məhərrəmli vurğulayıb ki, məqsəd tamaşaçıya yaxşı veriliş təqdim etməkdirsə, belə problemlər həll olunacaq: “Televiziya kanalları bu problemləri həll etmək gücündədir. Əgər məqsəd tamaşaçıya keyfiyyətli veriliş təqdim etməkdirsə, bunu etmək mümkündür. Yox, əgər məqsəd yalnız pul və reytinq qazanmaqdırsa, bu halda problemlər həmişə qalacaq.

TV-lər bir növ cəmiyyətin güzgüsü hesab olunur. Ekran insanlara zövq verməli olan, onların dünyagörüşünə təsir edən bir məkandır. Bu mənada TV-lərin maarifçiliyi, sosial-pedoqoji və inteqrativ funksiyası ona yönəlməlidir ki, insanlar TV-lərdən nəyi isə əxz etsinlər. Əksi olduqda isə çox pozucu və mənfi təsir bağışlayır, beləliklə, TV-də göstərilən neqativlər daha da geniş tirajlanır. Bu məsələlərdə əsas məsuliyyət ilk növbədə TV rəhbərlərinin üzərindədir. Onlar efirə kimlərin dəvət olunmasına, mövzu seçiminə diqqət yetirməlidirlər, davamlı nöqsanlara yol verənlər barəsində isə müəyyən tədbirlər görməlidirlər. Belə tədbirlər görülmədikdə, TV məkanlardakı nöqsanlar daha geniş yayılmağa başlayır. Ona görə də günahı ilk növbədə TV-lərin rəhbər şəxslərində görürəm. Düşünürəm ki, peşəkarlıq çox vacib məsələdir”.

# Vaşinqtonda böyük dönüş

## Tramp administrasiyası iqlim siyasətini dəyişir

16 fevral 2026-cı ildə prezident Donald Trampın Vaşinqtonda etdiyi çıxış ABŞ siyasətində yalnız texniki qərar deyil, bütöv bir ideoloji dönüş kimi qiymətləndirilir. Prezidentin Ağ Evdə ABŞ Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA) rəhbəri Li Zeldin ilə birlikdə elan etdiyi qərar - 2009-cu ildə Barak Obama administrasiyası tərəfindən qəbul edilmiş məşhur “Endangerment Finding” sənədinin ləğvi Amerika tarixində “ən böyük derequlyasiya addımı” kimi təqdim olundu. Bu qərar təkcə ekoloji siyasətin dəyişməsi deyil, həm də ABŞ-da enerji, avtomobil sənayesi və qlobal iqlim diplomatiyası üzərində gedən böyük siyasi mübarizənin yeni mərhələyə keçdiyini göstərir.

Hadisələrin kökü 2009-cu ilə gedib çıxır. Həmin il prezident Barak Obama EPA karbon emissiyalarını və fosil yanacaqları insan sağlamlığı üçün təhlükə kimi tanıyan hüquqi qərar qəbul etmişdi. Bu qərar sonrakı 15 il ərzində ABŞ-da avtomobil emissiya standartlarının sərtləşdirilməsi, elektrik avtomobillərinin təşviqi, enerji sektorunda iqlim məhdudiyyətləri, “Green New Deal” ideologiyasının hüquqi bazası üçün əsas mexanizmə çevrildi. Tramp isə bu sənədi “iqtisadiyyata qarşı ən böyük inzibati müdaxilə” adlandıraraq onun hüquqi əsasının olmadığını iddia etdi. Prezidentin sözlərinə görə, yeni qərar ABŞ iqtisadiyyatından 1,3 trilyon dollar həcmində tənzimləmə xərclərini aradan qaldıracaq. EPA rəhbəri Li Zeldin konkret rəqəmlər açıqladı: yeni avtomobillərin qiyməti orta hesabla 2400-3000 dollar ucuzlaşa bilər. İstehsalçılar emissiya hesabatları və ölçmə prosedurlarından azad edilir, elektrik avtomobillərinə keçid üzrə faktiki məcburiyyət ləğv olunur. Administrasiya bunu “istehlakçı seçiminin geri qaytarılması” kimi təqdim edir.

**ABŞ iqtisadi kursu yenidən formalaşır**

Tramp çıxışında xüsusi olaraq “Ford” zavodunun bağlanmaqdan xilas edildiyini xatırlatdı. ABŞ avtomobil sənayesi uzun illər iqlim standartlarının istehsal xərclərini artırdığını iddia edirdi. Prezidentin açıqlamasına görə, xarici avtomobil şirkətləri ABŞ-da yeni zavodlara 100 milyard dollardan çox investisiya elan edib. Ümumi investisiya axını artıq 18 trilyon dollar səviyyəsinə çatır. Bu rəqəmlər seçkiqabağı iqtisadi narrativin əsas hissəsinə çevrilir: derequlyasiya + tarif siyasəti = sənayenin geri dönüşü.

### Elektrik avtomobilləri və “məcburi keçid” mübahisəsi

Administrasiya xüsusilə elektrik avtomobilləri ilə bağlı əvvəlki siyasəti sərt tənqid edir. Trampın fikrincə, ABŞ-ın elektrik nəqliyyatına tam keçidi üçün təxminən beş trilyon dollar enerji infrastrukturu tələb olunacaqdı. EPA rəhbərliyi bildirir ki, ABŞ vətəndaşları benzin, dizel, hibrid, elektrik avtomobilləri arasında seçim etməkdə sərbəst olmalıdırlar. Bu yanaşma Avropa İttifaqının 2035-ci ildən daxili yanma mühərriklərini mərhələli şəkildə qadağan etmə planına tam zidd istiqamət hesab olunur. Çıxışın ən çox diqqət çəkən hissələrindən biri külək enerjisinə qarşı sərt mövqe oldu. Tramp külək turbinlərini “ən bahalı enerji mənbəyi”, “landşaftı məhv edən obyektlər”, “hava nəqliyyatı və hərbi təhlükəsizlik üçün risk” kimi xarakterizə etdi. Administrasiya artıq yeni külək layihələrinin böyük hissəsini dayandırmağa çalışdığını açıqladı. Bu isə ABŞ-ın bərpa olunan enerji strategiyasında ciddi dönüş kimi qiymətləndirilir.

### Çin, İran və Yaxın Şərq paraleli

Mətbuat konfransı yalnız iqtisadi mövzularla məhdudlaşmadı: prezident aprel ayında Çin lideri Si Cinpin ilə görüş planını təsdiqlədi; İsrail baş naziri Benyamin Netanyahu ilə danışıqlardan sonra İranla razılaşma üçün bir ay vaxt qaldığını bildirdi, razılaşma baş tutmazsa çox ağır mərhələnin başlanacağını vurğuladı. Bu açıqlamalar derequlyasiya qərarının yalnız daxili iqtisadi addım olmadığını, enerji geopolitikasına da təsir etdiyini göstərir.

Tramp eyni çıxışda SAVE America Act adlı seçki qanunu təşəbbüsünü də müdafiə etdi. Layihə fotoşəkilli seçici identifikasiyası, ABŞ vətəndaşlığının təsdiqi, geniş poçt səsverməsinin məhdudlaşdırılması kimi maddələri ehtiva edir. Prezident demokratları seçki sistemindən siyasi fayda qazanmaqda ittiham etdi ki, bu mövzu ABŞ-da növbəti siyasi qarşıdurmanın əsas xəttinə çevrilə bilər.

Çıxışı zamanı Tramp bir neçə diqqətçəkən göstərici səsləndirdi: Dow Jones indeksi 50 000 həddini keçib, S&P 500 7000 səviyyəsinə çatıb, federal işçi sayı azaldılsa da, məşğulluq artıb, tikinti sektorunda rekord iş yerləri yaranır. Administrasiya bu rəqəmləri derequlyasiya siyasətinin nəticəsi kimi təqdim edir. Derequlyasiya siyasəti isə, bildiyimiz kimi, dövlətin iqtisadiyyat üzərində tətbiq etdiyi qaydaların, məhdudiyyətlərin və nəzarət mexanizmlərinin azaldılması, yaxud da ləğvi deməkdir.



### ABŞ-da “iqlim siyasətindən sənaye siyasətinə” keçid

Vaşinqtonda elan olunan qərar bir qaydanın ləğvindən daha artıq məna daşıyır. Bu addım ABŞ-ın son 20 ildə formalaşmış iqlim siyasətinin əsas hüquqi sütununu dəyişir və ölkəni yeni modelə yönəldir: ekoloji prioritetlərdən iqtisadi rəqabətə, karbon məhdudiyyətlərindən enerji müstəqilliyinə, qlobal iqlim liderliyindən milli sənaye strategiyasına. Tramp administrasiyası bunu “Amerikanın qızıl dövrünün başlanğıcı” adlandırır. Lakin tənqidçilər hesab edirlər ki, bu qərar ABŞ-ı beynəlxalq iqlim siyasətindən təcrid edib gələcək ekoloji riskləri artıra bilər.

Bir məsələ isə artıq aydındır: 2009-cu ildə Obama administrasiyası ilə başlanan iqlim siyasəti dövrü Vaşinqtonda faktiki olaraq bağlandı və ABŞ yeni enerji-iqtisadi mərhələyə daxil oldu. Bu mərhələnin nəticələri yalnız Amerika üçün yox, bütün qlobal enerji balansı üçün həlledici ola bilər.

***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Arktika uğrunda yeni rəqabət

## Kanadanın “Nanuk” təlimləri şimalda güc mesajı verir

XXI əsrin ikinci onilliyindən etibarən dünya siyasətində geosiyasi diqqət mərkəzləri tədricən dəyişməyə başlayıb. Əgər uzun müddət beynəlxalq təhlükəsizlik gündəmini Yaxın Şərq münaqişələri, Qara dəniz regionu və Şərqi Avropadakı qarşıdurmalar müəyyən edirdisə, son illərdə Arktika regionu böyük dövlətlərin strateji planlarında xüsusi yer tutmağa başlayıb. İqlim dəyişiklikləri nəticəsində arktik buz örtüyünün sürətlə azalması regionu yalnız ekoloji müzakirə mövzusu olmaqdan çıxarıb, onu enerji ehtiyatları, yeni ticarət marşrutları və hərbi nəzarət baxımından kritik geosiyasi məkana çevirib. Məhz bu şəraitdə Kanada Silahlı Qüvvələrinin hər il təşkil etdiyi “Operation Nanook” hərbi təlimləri artıq regional tədbir kimi deyil, qlobal güc balansı kontekstində qiymətləndirilir.

“Nanuk” təlimlərinin əsası 2007-ci ildə qoyulub, proqram Kanadanın Arktika suverenliyini nümayiş etdirmək məqsədi güdür. 2023-2024-cü illərdə keçirilən mərhələlər xüsusilə geniş miqyaslı olub. Kanada Milli Müdafiə Nazirliyinin məlumatına görə, son təlimlərdə 800-dən çox hərbçi, Kanada ordusunun quru qoşunları, hərbi hava qüvvələri və donanma bölmələri iştirak edib. Təlimlər əsasən Şimal-Qərb Ərazilərində yerləşən Yellounayf və Nunavut bölgələrində keçirilib. Temperaturun bəzi günlərdə -45°C, külək effektini nəzərə aldıqda isə -50°C-yə qədər düşməsi hərbi personal üçün real döyüş şəraitinə yaxın ekstremal mühit yaradıb.




Kanada silahlı qüvvələri birgə əməliyyatlar komandanlığının rəhbəri general-leytenant Stiv Bovin təlimlərin məqsədini belə izah etmişdi: “Arktikada qalib gələn tərəf daha güclü silaha malik olan deyil, bu mühitdə yaşayıb fəaliyyət göstərə bilən tərəf olacaq”. Təlimlər çərçivəsində buz üzərində ağır texnikanın hərəkəti, peyk rabitəsinin zəif olduğu şəraitdə alternativ kommunikasiya sistemləri, arktik axtarış-xilasetmə əməliyyatları və uzunmüddətli logistika təminatı sınaqdan keçirilib. Xüsusilə Kanada ordusunun 41-ci mühəndis alayı buz üzərində müvəqqəti eniş zolaqları və logistika nöqtələri quraraq şimal əməliyyatlarının praktiki modelini nümayiş etdirib.

Kanadanın müdafiə naziri Bill Bleyr 2024-cü ildə Ottavada çıxışı zamanı vurğulamışdı ki, Arktika artıq “uzaq və əlçatmaz region deyil, milli təhlükəsizliyin ön xəttidir”. Onun sözlərinə görə, iqlim dəyişiklikləri səbəbindən regionda gəmiçilik mövsümü son 30 ildə təxminən iki dəfə uzanıb, bu isə həm iqtisadi imkanları, həm də təhlükəsizlik risklərini artırır.

**Əriyən buzlar və böyük dövlətlərin strateji hesablaması**

ABŞ Geoloji Xidmətinin (USGS) hesablamalarına görə, Arktika regionunda dünya üzrə hələ kəşf olunmamış enerji ehtiyatlarının təxminən 13 faizini neft, 30 faizini isə təbii qaz təşkil edə bilər. Bundan əlavə, nadir torpaq metalları və kritik mineralların mövcudluğu regionu yüksək texnologiyalar sənayesi üçün də vacib edir. Buz örtüyünün azalması nəticəsində açılan Şimal Dəniz Marşrutu Asiya ilə Avropa arasında dəniz yolunu Süveyş kanalı ilə müqayisədə 30-40 faiz qısalda bilər. Məsələn, Şanxaydan Rotterdam limanına məsafə təxminən 19 min kilometrdən 12-13 min kilometrə qədər azalar. Bu səbəbdən Arktika uğrunda rəqabət artıq açıq hiss olunur. Rusiya regionda ən geniş hərbi infrastruktura malik dövlətdir. Prezident Vladimir Putinin 2020-ci ildə təsdiqlədiyi Arktika Strategiyasına əsasən, Moskva Franz Josef Land, Novaya Zemlya və Yeni Sibir adalarında hərbi bazaları modernləşdirib. Rusiya müdafiə naziri dəfələrlə bildirib ki, Arktika Rusiyanın iqtisadi gələcəyinin təminatçısıdır. Rusiya şimal donanması üçün yeni buzqıran gəmilər və Arktik şəraitə uyğunlaşdırılmış zenit-raket sistemləri yerləşdirib.

ABŞ tərəfi isə son illər regiona diqqəti artırıb. ABŞ Müdafiə Nazirliyinin Arktika strategiyası 2022-ci ildə yenilənərək Çin və Rusiyanın artan fəaliyyətini əsas təhlükəsizlik faktoru kimi qiymətləndirib. ABŞ-ın Avropa komandanlığının keçmiş rəhbəri general Kristofer Kavoli Arktikanı “strateji rəqabətin növbəti mərhələsi” adlandıraraq NATO ölkələrinin koordinasiyasının vacibliyini vurğulamışdı. NATO-nun eks baş katibi Yens Stoltenberq də çıxışlarında qeyd etmişdi ki, alyans Arktikada hərbi mövcudluğunu artırmaq niyyətindədir.

Kanada üçün isə məsələ yalnız geosiyasət deyil, suverenlik məsələsidir. Kanada baş nazirinin 2019-cu ildə təqdim etdiyi “Arctic and Northern Policy Framework” sənədində Arktikanın Kanadanın milli kimliyi və təhlükəsizliyi üçün əsas region olduğu bəyan edilmişdi. Ottava hesab edir ki, şimal-qərb keçidi (Northwest Passage) Kanadanın daxili sularıdır, lakin ABŞ və bəzi Avropa dövlətləri onu beynəlxalq su yolu kimi qiymətləndirir. Bu hüquqi mübahisə gələcəkdə siyasi gərginlik potensialı yaradacaq əsas məsələlərdən biri sayılır. “Nanuk” təlimləri məhz bu kontekstdə siyasi mesaj kimi qiymətləndirilir. Təlimlərdə istifadə olunan xüsusi arktik nəqliyyat vasitələri, qar üzərində hərəkət edən zirehli platformalar, yeni nəsil termal geyimlər və uzaq məsafəli pilotsuz müşahidə sistemləri Kanadanın regionda uzunmüddətli hərbi mövcudluğa hazırlaşdığını göstərir. Kanada Hərbi Hava Qüvvələrinin CF-18 qırıcıları və CP-140 Aurora patrul təyyarələri də təlimlərə qoşularaq hava nəzarəti ssenarilərini məşq edib.

Hərbi analitiklərin fikrincə, Arktikada yaxın gələcəkdə açıq müharibə ehtimalı aşağı olsa da, “aşağı intensivlikli strateji rəqabət” artıq başlayıb. Enerji ehtiyatları, yeni ticarət yolları və hərbi müşahidə üstünlüyü dövlətləri regionda möhkəmlənməyə məcbur edir. Kanadanın “Nanuk” təlimləri göstərir ki, gələcəyin təhlükəsizlik arxitekturası yalnız isti regionlarda deyil, buzlaqlar üzərində də formalaşır.

Bu gün Yellounayf yaxınlığında mənfi 50 dərəcədə həyata keçirilən hərbi məşqlər sadəcə taktiki hazırlıq deyil, qlobal siyasətin istiqamətini göstərən siqnaldır. Arktika artıq coğrafi periferiyadan çıxaraq XXI əsrin enerji, logistika və təhlükəsizlik balansını müəyyən edə biləcək əsas geosiyasi meydanlardan birinə çevrilir və böyük dövlətlərin rəqabəti getdikcə daha çox şimal enliklərinə doğru hərəkət edir.

***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Şənbə üçün nəzm



İnanmıram, çətin ki, bu dünyada taparsan
Gözlərinə vurulmuş bu qəmli bimar kimi.

Bu dünyada, ey ürək, ən ucuzu sevgidir,
Yaşayasan ömrünü gərək ki, biar kimi.

Bilirsənmi mən niyə gecələrdən qorxuram?
Sızıldayır sinəmdə yoxluğun azzar kimi.

Bu beşgünlük dünyada var olmağın xeyri nə?
Köpük dəniz sayılmır, görünsə də var kimi.

Yandır məni, tərk elə, qoy alışım-yanım mən,
Qaranlıqda var olan şəmi-şəbi-tar kimi.

Məni atıb getdiyin o tindəyəm, gəlginən,
Çünki cahan dövr edir yerində pərgar kimi.

Tərk eləməklə bitmir mənim kimi dərdləri,
Dönəcəyəm haçansa saçlarına qar kimi.

Gücün belə çatmasa, gözünü çəkmə yardan,
Heç olmasa zahirən görün xəridar kimi.

Hamı nəsə xərcləyir dünya adlı bazarda,
Sən də xərclə Saymanı dirhəmi-dinar kimi.

***

Sanma aparırlar səni mehman eləsinlər,
Dostum, aparırlar səni qurban eləsinlər.

Gizlət qəmini, sanma ki, əğyar soruşursa,
İstəkləri var dərdini dərman eləsinlər...

Babək, Hələbə kimsə aparmır səni mehman,
Niyyətləri var qanına qəltan eləsinlər.

Yusif, quyudan çox da sevinmə ki, çıxıbsan,
Misrə aparırlar səni zindan eləsinlər.

Bülbül, səni aşiq edənin məqsədi varmış,
Aşiq eləyiblər səni nalan eləsinlər.

Həvva, yediyin almada bir hilə var imiş,
Arzu bu imiş Adəmi şeytan eləsinlər.

Geydikləri ağ paltara aldanma, Əli (ə) can,
Niyyətləri var nizəyə Quran eləsinlər.

Ey gül, qoparanlar səni gülzarın əlindən,
Kaş kinlərini eşq ilə dərman eləsinlər.

Ey Şəms, səni torpağa gömməklə rəqiblər,
Bilmir ki, əkirlər səni vulkan eləsinlər.

Fərhad, ayıq ol, baltanı öz başına vurma,
Məqsədləri var Bisütunundan eləsinlər.

Leyli, saçını bu küləyin hökmünə vermə,
Niyyət budu Məcnunu pərişan eləsinlər.

İbrahimə de, səbr eləsin, sınmasın əsla,
Dostlar çalışır narı gülüstan eləsinlər.

Ey Nuh, özünə bir gəmi hazırla, fikir var,
Allahsız adamlar yenə tufan eləsinlər.

Arxanda sənin qəddi əyilməz Savalan var,
Hər nə eləyirlər de ki, Sayman, eləsinlər.

**

Məndən uzaq dur, ey dost, bulaşmasın qəm sənə,
Yoxsa şair olarsan, qəmdən gələr dəm sənə.

Mən gördüyüm günləri heç düşmən də görməsin,
İstəmirəm ki, baxsın kəm adamlar kəm sənə.

Bayquş kimi hər gecə dil açıram şeirlə,
Söyləyirəm dərdimi həm Allaha, həm sənə.

Jalə kimi hər gecə otururam güllərə,
Kədərimi səhərlər deyirəm nəm-nəm sənə.

Bilirsənmi hər axşam niyə qaranlıq çökür?
Mənim adımdan cahan saxlayır matəm sənə.

Kaş ki bir söz tapım, deyə bilsin hissimi,
Kaş ki bunca qüssəni danışa bilsəm sənə.

Səndən ötrü beş-üç gün yaşamağa nə var ki?
İnan mənə, istəsən, yıxılıb ölləm sənə.

Ah, İsmayıl, qoç kimi gah oluram qurbanın,
Gah da Kəbə yanında oluram Zəmzəm sənə.

Mənə bir tar verginən ki, ifşa etsin məni,
Bu sevginin sirrini çalım zilü-bəm sənə.

Hürr olmağa "Quran"ı oxumağa gərək yox,
Bəs eyləyər inan ki, hətta bir ayəm sənə.

İçimdəki vulkanım partlayacaq haçansa,
Yanımda olsan yəqin, dəyəcək qəlpəm sənə.

Məndən uzaq dur, ey dost, yoxsa qəmim bir gecə
Ya olacaqdır Əfşin, ya İbni-Mülcəm sənə.

Bu kədərin mənşəyin soruşma məndən əsla,
Elə sirlər vardı ki, danışa bilməm sənə.







*Sayman Aruz*

Həyatım ağrıyır, ölə bilməyir
Məndə bir kişi var, gülə bilməyir

Məndə bir payız var, tələsir yaman
Dünya məndə durub, yeriyir zaman

Məndə bir yol gedir, sonu intihar
Son görüş, son gülüş, əlvida, qatar.

Kimsə ölmək ilə Ona çatmayıb
Kimsə getmək ilə sona çatmayıb

Yarpaq olmasaydı, olmazdı payız
Sarı yarpaq ilə dolmazdı payız!

Yağış olmasaydı, olmazdı bulud
Günəşin saçını yolmazdı bulud!

Sənə ağlamaqçün yarandı gözüm
Sənə "qal" deməkçün yarandı sözüm!

Pəncərə sevginin şişədən əti
Sevgi pəncərənin acı həsrəti

Bağlansa pəncərə sevgiyə sarı
Kimə göz dikərik axşam çağları?

Mərdləri ağladan acı dərd idik
Ağlaya bilmədik, biz namərd idik!

Bizdən danışdılar bütün təpiklər
Bizə oxşadılar sarı əriklər!

Nə qədər səsləsin səni həncərə?
Nə qədər gözləsin səni pəncərə?

Sürünə-sürünə bura çatmışam
Sənə çatmamışam, sona çatmışam

Sənə çatmalıydım, mən ən sonunda
Sənlə yatmalıydım mən ən sonunda

Sevginin sözündən şeir yaratdım
Yıxılıb son sözün yanında yatdım!

Unut məni, sevgilim, sadə bir ilqar kimi,
Yolüstü söykəndiyin çoxlu divarlar kimi.

Onsuz sənə desəm ki, mənimlə qal - xeyri yox,
Züleyxanın Yusifə etdiyi israr kimi.

# Kənd kitabxanası



*Məqsəd Nur*

*Taleyi, təxminən, kənd müəlliminin taleyi kimidir: öyrədir, yetişdirir,bir də görür ki, şəhər alıb apardı. İndi isə öyrətməyi də yoxdur, yaşlanıb və gələcəyi nisbətən dumanlıdır...*

"Elmi-mədəni ictimaiyyət" dediyimiz təbəqənin bir çox nümayəndələrinin yolu bu və ya digər formada kənd kitabxanasından keçməmiş deyil. Sovet hökuməti kiril əlifbasını tətbiq edib, ona uyğun kitabxanasını da "ümmət"inin xidmətinə verdi. İndi həmin kitablar ya kiflənir, ya da "ölü can" kimi makulaturaya verilir...

Görəsən, ötən əsr boyu kirildə yaratdığımız, "yazıb-pozduğumuz" və tərcümə etdiyimiz irs tam şəkildə latın qrafikasına çevrilibmi? Belə bir statistika maraqlı olardı... Çünki, "Mədəniyyət - 2040" konsepsiyasında kitabxana məsələsinə yanaşma çox dəqiqdir: "Kitabxana sistemində nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, infrastrukturun təkmilləşdirilməsi və xidmətlərin keyfiyyətinin artırılması..."

Konsepsiya kitabxanaları ləğv etməyin deyil, təkmilləşdirməyin xeyrinədir. Təcrübə göstərir ki, kənd kitabxanası kəndin ümumi inkişafı ilə birbaşa bağlıdır. Yəqin ki, yanaşmalar da bu cür olacaq. Lakin hələ də fəaliyyət göstərən və ya yenidən təşkil edilən kənd kitabxanaları varsa, oralarda nə baş verəcək?

Əlbəttə ki, infrastruktur smart/elektron sistemə uyğunlaşdıqca, kitabxanaların da yaşamaq şansı artacaq.

Müasir dövrdə kənd kitabxanalarının modernləşdirilməsi onların yerli sakinlər və ehtimal ediləbiləcək turistlər üçün rəqəmsal texnologiyalarla təmin edilməsidir. Üstəlik, hər bir kitabxananın məlumat bazasının zənginləşdirilməsi insanların fasiləsiz təhsilə çıxışının təmin edilməsi, çoxfunksiyalı mədəniyyət və təhsil mərkəzlərinə çevrilə bilməsidir. Məsələn, kənd kitabxanası həm də ünsiyyət (daha çox kommunikasiya) üçün, çayxanadan daha münasib məkana çevrilə bilərmi? Yəqin, çevrilə bilər. Bir halda ki, funksiyası çayxananı əvəzləmək, yox etmək olmasın...

Görəsən, bizim kənd kitabxanalarında rəqəmsal savadlılığın təmin edilməsinə ehtiyac qalacaqmı? Hər bir kitabxananın ərazisini zonalara - məsələn, uşaq, yaxud multimedia zonasına bölsək, nə baş verəcək? Kitabxananı icma görüşləri, müzakirələr üçün uyğun bir məkana çevirə bilərikmi? Qlobal rəqəmsal kitabxana resursları ilə birləşdirmək necə, mümkün olarmı?

Bütün bu suallara cavab o qədər yaxındadır ki, sadəcə yanaşmanı dəyişməklə uğurlu nəticələr əldə etmək reallıqdır. Avropada kənd (ucqar) informasiya mərkəzlərinin inkişafı və bu ərazilərdə xidmət göstərmək üçün mobil kitabxanalardan (təkərli kitab və sair) aktiv istifadə edilir. Bizdə isə keçmişdə, inkişaf zəncirindəki qırılmalar nəzərə alınmasa və bu boşluq tam şəkildə doldurulmasa, yeni kitabxanaların çayxananı əvəzləməyə başlayacağı ehtimalı var. Halbuki çayxanalardan imtina etmək heç də mədəniləşmək və ya maariflənmək hesab edilməməlidir. Yeni kənd kitabxanaları fasiləsiz təhsil və kommunikasiya məqsədli qurulsa, nə etnoqrafik dəyərlərə, nə də yerli icma mədəniyyətinə mənfi təsir göstərər.

Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasının məlumatına görə, dünyada 569.600-dən çox kitabxana var. Bunlardan 440.000-dən çoxu Avropada, 125.000-dən çoxu isə Şimali Amerikadadır.

Əlbəttə, statistika mühümdür, lakin müasir dövrün gələcək üçün əsas göstəriciliyi daha çox funksionallıq olacaq. Kitabxana yoxdursa, gələcək də dumanlıdır. Məktəb nə qədər mühümdürsə, kənd kitabxanası da o qədər, təhsilin, gələcək inkişafın təməlidir - öyrədicidir. Əgər sizin kənddə ünsiyyət qurmağa  kimsə uyğun kimsə, nə isə yoxdursa, kənd kitabxanası həm yaxın dost, sirdaş, həm də müəllim  ola bilər. Bir də baxıb görərsən ki, ucqar bir kənddən heç vaxt kənara çıxmaq istəməyən uşaq kitabxananın balaca otağında mütaliə edib öyrənə-öyrənə, məsələn, dahi bir şahmatçıya çevrildi. Niyə də olmasın, axı dünya insan, fərd mərkəzli olmağa çalışır...

# Tibbin aciz qaldığı xəstəliklər

## Dünya əhalisinin yalnız 5 faizini əhatə edir...

*Yeganə BAYRAMOVA*

Bəzən xəstəlikdən əziyyət çəkənlərə "Dərdi verən Allah dərmanı da verər" deyirik. Lakin bu deyim hər dəfə özünü doğrultmaya bilər. Çünki tibb nə qədər inkişaf etsə də, elə xəstəliklər var ki, müasir tibb də onun qarşısında aciz qalır. Bəşəriyyətin mübarizə etdiyi xəstəliklərin bəzisi yüngül olur və müalicə ilə aradan qaldırıla bilir. Nadir və çarəsi bilinməyən xəstəliklər üçün isə heç bir dərman kəşf olunmayıb və çox güman ki, onlar hələ uzun illər boyu bəşəriyyətdə böyük bir sirr olaraq qalacaq.




Hər il bu xəstəliklərin siyahısı genişlənir. Məsələn, keçən il tibbə məlum olmayan xəstəliklər bu il siyahıya daxil olur. Ya da 10 il əvvəl mövcud olan qəribə xəstəliklər artıq siyahıda yoxdur.

**Nadir xəstəliklərin 72 faizi...**

Hazırda dünyada 6 mindən çox nadir xəstəlik aşkar edilib. Avropa İttifaqına (Aİ) görə, bir xəstəliyin nadir sayılması üçün hər 2 min nəfərdən birində həmin xəstəlik müşahidə edilməlidir. Nadir xəstəliklərin 72 faizi irsi olduğu halda, qalanları ətraf mühit, infeksiya və ya allergiya səbəbindən yaranır. Bu halda doğulan uşaqların 30 faizi 5 yaşına çatmadan dünyasını dəyişir. Təxminən 30 milyon xəstə ilə ABŞ bu günə qədər ən çox nadir xəstəliklərin qeydə alındığı ölkələr arasında birinci, 20 milyon xəstənin qeydə alındığı Çin isə ikinci sıradadır. Ümumiyyətlə, Avropada 36 milyon insan nadir xəstəliklərlə mübarizə aparır.

**"Daş adam sindromu"**

Nadir xəstəliklərdən olan "Daş adam sindromu"ndan əziyyət çəkən insanlarda zamanla bədəndəki əzələlər, vətərlər və birləşdirici toxumalar sümükləşir. Tibbi adı "Fibrodysplasia Ossificans Progressive (FOP)" olaraq bilinən bu xəstəlik dünyada 2 milyon insandan yalnız birində rast gəlinir, lakin hələ də müalicəsi yoxdur.

**Qaçış sindromu...**

Bu xəstəliyə tutulan xəstələrin yüzdə 25-30-u ölüm riski yaşayır. Qaçış sindromu dünyada yalnız 60 nəfərdə rast gəlinib. Ayaqlarda şişmə və halsızlıq ilə başlayan xəstəlik nəfəs darlığı, təngnəfəslik, böyrəklərin fəaliyyətinin dayanması, təzyiqin enməsi və orqan çatışmazlığına səbəb ola bilir.

**Erkən yaşlanma**

Tibbdə adı Progeriya olan erkən yaşlanma dünyada 5 milyonda bir görülən xəstəlikdir. Bu xəstəlik daşıyıcılarında zəka və beyin inkişafı normal olsa da, orqanlar və dəri sürətli şəkildə qocalır. Xəstələrin çoxu ən azı 15 yaşına qədər yaşaya bilir. Modern tibbdə müalicəsi olmayan Progeriyaya bu günə qədər 30 nəfərdə rast gəlinib.

**Alveoler proteinozis...**

Xəstəliyin qeyri-üzvi tozlara qarşı həssas olduğu məlum olsa da, nədən yarandığı məlum deyil. Milyonda 5 insanda rast olunan xəstəlik birdən-birdə yüksək qızdırma, öksürək, sinə ağrısı, nəfəs darlığı ilə müşayiət olunur.

**Ağac adam xəstəliyi**

Dünyanın ən nadir xəstəliklərindən biri olan ağac xəstəliyi bir növ dəri xəstəliyidir. İnsanlarda ziyil kimi quruluşların meydana gəlməsinə səbəb olan isə insan papilloma (HPV) virusudur. Nadir xəstəlik zamanı bu ziyillər tədricən ağac kökü kimi forma almağa başlayır. Əllər və ayaqlardakı bu kötüklər o qədər böyüyür ki, bir müddət sonra onları istifadə etmək mümkün olmur. Xəstəliyin kökündə genetik pozğunluq dayansa da, yuxarıda adıçəkilən virus da əsas səbəb sayılır.

**Sirenomelia- Su pərisi xəstəliyi**

Dünyada nadir görülən xəstəlik zamanı uşaqlar ayaqları yapışıq formada dünyaya gəlirlər. Bu görünüşləri ilə su pərilərinə oxşadıqları üçün xəstəlik belə adlanır. Bu cür körpələrin ayaqları cərrahiyyə əməliyyatı ilə ayrılsa da, böyrək və ifrazat sistemi yetərincə inkişaf etmədiyi üçün uzun müddət yaşamaları çətindir. Bundan əlavə, belə uşaqların cinsiyyət orqanları da içəridə qalaraq görünmür.

Yeri gəlmişkən, Avropa Nadir Xəstəliklər Təşkilatının (EURORDIS) təşəbbüsü ilə fevralın 28-i Beynəlxalq Nadir Xəstəliklərin Günü kimi qeyd olunur. Təşkilatın məlumatına görə, nadir xəstəliklər dünya əhalisinin yalnız 5 faizini əhatə edir. Belə xəstəliklərin diaqnozu çətin olduğundan və xəstəliyi aşkarlamaq təxminən 5-7 il müddət çəkdiyindən bir çox xəstələr müalicədən məhrum olur.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4862
Sifariş: 270
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova